# Paralel

www.paralel.az

İctimai-siyasi qəzet

13 yanvar 2022-ci il

№ 003-004 (3571-3572)

Qiymәti 20 qәpik


GünXəbər



## Prezident yerli televiziya kanallarına müsahibə verib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 12-də yerli televiziya kanallarına müsahibə verib.**

Dövlətimizin başçısı müsahibədə jurnalistlərin Azərbaycanda 2021-ci ildə iqtisadi, sosial sahələrdə görülən işlərə, Azərbaycanla Ermənistan arasındakı münasibətlərə, işğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma işlərinə, ölkəmizin xarici siyasətinə və digər məsələlərə dair sualları cavablandırıb.

## Zakir Həsənov Türkiyəli həmkarıyla telefonla danışdı ...



Yanvarın 12-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənovla Türkiyəli həmkarı H.Akar arasında telefon danışığı olub.

H.Akar Azərbaycan-Ermənistan dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində yanvarın 11-i Ermənistan Silahlı Qüvvələrinin törətdiyi təxribat nəticəsində hərbi qulluqçumuzun şəhid olması ilə bağlı başsağlığı verib.

H.Akar Türkiyə Silahlı Qüvvələrinin hər zaman olduğu kimi bu gün də haqq savaşında Azərbaycanın yanında olduğunu bildirib.

### ... Və rus generalını qəbul etdi



Elə həmin gün Z.Həsənov Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya «sülhməramlı» qüvvələrinin yeni komandanı, general-mayor Andrey Volkovu qəbul edib.

Qeyd edək ki, general-mayor A.Volkovu nazirə general-leytenant Rüstəm Muradov təqdim edib.

# Erməni təxribatına İsrail üslubunda cavab

**"Ordumuzun Ermənistanın Kəlbəcər istiqamətindəki təxribatına qarşı cavab tədbirləri nəticəsində düşmənin iki postu darmadağın edilib, oradakı silah-sursatları, bir neçə hərbi texnika və hərbi avtomobil məhv olunub".**

Bunu jurnalist Elçin Alıoğlu deyib. Jurnalist təxminən 6 erməni hərbçisinin məhv edildiyini və düşmən tərəfdə çox sayda yaralı olduğunu bildirib.



Səh. 2

## Azərbaycanda media var, lakin...



**Məmurlar niyə narahatdır?**

Səh.3

## Addım-addım Qazaxıstan hadisələri



**... Rusiya etirazları üsyana-fürsətə çevirən dövlətdir**

Səh. 4

## Qazaxıstan faciəsi



**Sosial ədalət uğrunda mübarizə nədən faciəyə çevrildi?**

Səh. 5

# “Ruslar ya bu yolla gedəcəklər, ya da...”

### Ağ Ev nöqtəni qoydu

**«Rusiyanın Avropada davam edən Ukrayna danışıqlarında diplomatiya yolunu tutmaqda ciddi olub-olmadığını söyləmək hələ tezdir».**



Bunu Ağ Evin sözçüsü Cen Psaki jurnalistlərə açıqlamasında deyib.

*C. Psaki əlavə edib ki, əgər ruslar xoş niyyətlə ciddi danışıqlara hazırdırlarsa, biz də hazırıq.*

Psaki hər iki tərəfin Cenevrədə ilk turu keçirilən danışıqlarda hansı mövzulara üstünlük verməsi ilə bağlı da açıqlama verib: *“Məsələn, NATO ilə bağlı mövqeyimizi açıqladıq. NATO-nun Ukrayna ilə əlaqələri yalnız Ukrayna və 30 NATO ölkəsinə aiddir, başqa heç bir ölkəyə yox”.*

Ağ Evin sözçüsü daha sonra deyib: *“Hansı yolla gedəcəklərinə qərar vermək tamamilə rusların öz ixtiyarındadır. Onlar ya diplomatik yolla gedəcəklər, ya da bizim 2014-cü ildə tətbiq etdiyimizdən daha çox iqtisadi sanksiyalar tətbiq etməyimizə səbəb olacaqlar”.*



# Rusiyaya ağır zərbə

### “Silah” kimi istifadə etdiyi layihə dayandırıldı

**Rusiyanın Avropaya qaz nəql edəcək tarixi enerji layihəsi olan “Şimal axını 2” ilə bağlı açıqlama verən Almaniya Xarici işlər naziri Annalena Berbok layihənin dayandırılacağını bildirib.**

Nazir mübahisəli boru kəməri layihəsinin hələ Avropa İttifaqının sertifikatlaşdırma tələblərinə cavab vermədiyini və operator dəyişiklik olana qədər prosesin dayandırıldığını deyib.

Annalena Berbok bildirib ki, *“Şimal axını 2”*nin gələcəkdə geosiyasi nəticələri olacaq və buna görə də Almaniyanın yeni hökuməti sertifikatlaşdırmadan əvvəl bütün tələblərin yerinə yetirilməsini tələb edir: *“Federal hökumətimiz koalisiya sazişində aydın şəkildə göstərib ki, Almaniyadakı enerji layihələri Avropa tələblərinə uyğun olmalıdır. Bu tələblər “Şimal axını 2”yə də aiddir. Amma bu, hazırda belə deyil, ona görə də sertifikatlaşdırma prosesi dayandırılıb”,* - Berbok söyləyib.

Xarici işlər naziri həmçinin bildirib ki, Berlinin ABŞ-la razılaşması var və Moskva Ukraynaya qarşı enerjidən silah kimi istifadə edərsə, Rusiyaya qarşı sərt tədbirlər görməyə sadiqdir.

Digər tərəfdən, rəsmi Vaşinqton və Kiyev bunun Avropanın Rusiya qazından asılılığını artıracağını və qitənin enerji təhlükəsizliyini azaldacağını iddia edərək bunun qəti əleyhinədir.

Dekabrda Rusiya Prezidenti Vladimir Putin kəmərin təbii qazı Avropaya göndərməyə hazır olduğunu bildirmişdi.

***Mənsur Rəğbətoğlu***

**“Ordumuz Ermənistanın Kəlbəcər istiqamətindəki təxribatına qarşı cavab tədbirləri nəticəsində düşmənin iki postu darmadağın edilib, oradakı silah-sursatları, bir neçə hərbi texnika və hərbi avtomobil məhv olunub”.**

Bunu jurnalist Elçin Alıoğlu deyib. Jurnalist 5-8 arası erməni hərbçisinin məhv edildiyini bildirib və düşmənin çox sayda yaralısının olduğunu bildirib.

# Erməni təxribatına İsrail üslubunda cavab

Elçin Alıoğlu Ermənistanın üçtərəfli anlaşmalardan boyun qaçırdığını söyləyib: *“Ermənistanın xüsusi səbəb olmadan və müvafiq üçtərəfli bəyanatlarla üzərinə götürdüyü öhdəlikləri-*



*ni pozaraq iki dövlətin sərhədi boyunca vəziyyəti gərginləşdirməsi məqsədyönlü hərbi təxribat və hərbi avantüradır. Bütün hallarda Azərbaycan ordusunun bölmələri tərəfindən qarşı tərəfə adekvat və mütənasib cavab verilib. Azərbaycan ordusunun sıralarında şəxsi heyət və hərbi texnika baxımdan itki olmayıb.*

*Ermənistan tərəfindən iki ölkənin dövlət sərhədi boyunca qəsdən vəziyyətin yenidən gərginləşdirilməsi cəhdlərinin təkrarlana biləcəyini istisna etməyərək Azərbaycan ordusunun bölmələri gücləndirilmiş rejimdə ölkəmizin suveren ərazilərini və sərhədlərinin təhlükəsizliyini qoruyur”.*

Jurnalist KTMT-nin Qazaxıstandakı “sülhməramlı missiya”sından cəsarətləndiklərini bildirib: *“Görünür, Paşinyan və erməni generalları Qazaxıstanda “sülhməramlılar” rolunu sınadıqdan sonra daha da cəsarətləniblər. Amma siz çox səhv hesabladınız. Azərbaycan əsgərinə qarşı durmaq Almatı bazarını qorumaq deyil. Cavablarımız İsrail üslubundadır və olacaq”.*

# Əhməd İsmayılov: "İfadə azadlığının daha çox təmin edilməsi üçün iş aparılır"

**”Hazırda ölkədə media sahəsinə dair qanunvericiliyin təkmilləşdirilməsi, ifadə azadlığının daha çox təmin edilməsi istiqamətində müvafiq iş davam etdirilir, qanunvericilikdə mövcud olan bəzi tələblərin yumşaldılması imkanları təhlil edilir”.**

Bu fikirlər Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılovun “Media islahatları: yeni hədəflərə doğru” məqaləsində yer alıb.



*"İstənilən ölkədə medianın inkişafının ilkin şərtlərindən biri jurnalistlərin peşəkarlığının artırılması, onların problemləri və ehtiyacları ilə bağlı tədbirlərin görülməsidir. Agentlik bu istiqamətdə istər müstəqil şəkildə, istərsə də yerli və xarici tərəfdaşlarla birgə müntəzəm olaraq müxtəlif təlimlər, treninqlər və digər tədbirlər həyata keçirməkdədir. Bununla yanaşı, Agentlik tərəfindən media subyektlərinin rəhbərləri üçün menecment və idarəetməyə dair xüsusi seminarlar, region mediasının inkişafı ilə bağlı müxtəlif bölgələri təmsil edən media subyektlərinin nümayəndələri ilə videokonfrans formatında görüş təşkil edilib",* - o vurğulayıb.

### ”Yeni qanun jurnalistlərə güzəşt və imtiyazlar üçün hüquqi əsas yaradacaq”

*""Media haqqında" yeni qanunun qəbul edilməsi hazırda son dərəcə aktualdır və əminliklə demək olar ki, zərurətə çevrilib. Bu qanun peşəkar media subyektləri və jurnalistlər üçün geniş imkanlar və potensial güzəşt və imtiyazlar üçün hüquqi əsas yaradacaq, ölkə mediasının daha yüksək inkişaf mərhələsinə keçidinə dəstək olacaqdır".*

*"Lakin unudulmamalıdır ki, media bir prosesdir və həmin prosesdə media subyektləri və jurnalistlər iştirakçıların yalnız bir qrupu – xəbərin, media məhsulunun istehsalçısıdırlar. Onlarla yanaşı həmin prosesdə bu media məhsullarının istehlakçıları – auditoriya, yəni qəzet və sayt oxucuları, televiziya tamaşaçıları, radio dinləyiciləri və s. da iştirak edir. Yeni qanun layihəsi hazırlanarkən Azərbaycanın Konstitusiyası, qanunvericilik bazası, beynəlxalq qanunvericilik və müxtəlif digər sənədlər nəzərə alınıb. Məsələn, Avropa Şurasının “Jurnalistika Etikası” ilə bağlı qəbul etdiyi Qətnamənin müddəalarına uyğun olaraq yeni layihədə bütün tərəflərin, o cümlədən media məhsulu islehlakçısının da maraqları nəzərə alınmış, onların hüquqlarının qorunması təmin edilib",* - o vurğulayıb.



# Nikol KTMT qoşunlarına rəhbərlik edirdi: absurdluq...

**«Rusiya tərəfi Qazaxıstanda stabilləşmə prosesinin getdiyini, lakin hələ də başa çatmadığını açıq şəkildə bildirir və Prezident Tokayev birdən-birə KTMT kontingentinin iki gündən sonra Qazaxıstanı tərk edəcəyini açıqlayır. Bu uyğunsuzluqlar başadüşüləndir. Görünür, Qazaxıstan Prezidentinin özü də artıq bilir ki, bu bir neçə gün ərzində onun imici həm öz əhalisinin, həm də Qərbin nəzərində köklü şəkildə dəyişib və bu, ölkə üçün həlledici əhəmiyyət kəsb edir».**

Bu sözləri açıqlamasında xarici siyasət, müdafiə və təhlükəsizlik üzrə rusiyalı ekspert Qriqori Trofimçuk deyib.

*“Amma KTMT-nin ölkədən çıxarılması qərarı respublikanın rəhbərliyi tərəfindən verilməyəcək, çünki indi heç kim KTMT-nin çıxarılmasından dərhal sonra iğtişaşın təkrar olmayacağına zəmanət verə bilməz. KTMT rəhbərliyi öz missiyasını ən yüksək balla qiymətləndirir, bununla belə, çoxlu sualların qaldığını anlayır. Və burada problem heç də ABŞ və ya NATO-nun diqqətində deyil, bütün Mərkəzi Asiyanın, o cümlədən Qazaxıstanın buna necə baxmasındadır. Baş verən hadisələr əslində regiona gələcək sarsıntılar üçün yol açıb. Bu da artıq KTMT və Moskvanın özlərini necə qiymətləndirməsindən asılı deyil”,* - Tofimçuk bildirib.

Onun sözlərinə görə, bu prosesdən nəticələr çıxarılmasına da başlanılıb: *“Növbəti dəfə Orta Asiyada hansı ölkə hücuma məruz qalacaq? O zaman kimin günahkar olduğunu anlamaq mümkün olmayacaq: etirazçılar, dini radikallar, əfqan terrorçuları, ABŞ, KTMT və s. Vəziyyət məhz bu mərhələyə qədəm qoyub. Belə iş üçün lazımi kütləvi informasiya vasitələrinə malik olmayan, real, peşəkar təbliğatın nə olduğunu başa düşə bilməyən Rusiya artıq heç kimə heç nə sübut edə bilməyəcək, hər tərəfdən xoşagəlməz terminlərlə üzləşəcək. Ümumiyyətlə, bunu deyə bilərik: Mərkəzi Asiyanın beş postsovet ölkəsi bütün regionun perspektivlərini tamamilə dəyişəcək bir zərbəyə məruz qalıb. KTMT, təbii ki, Qazaxıstanı tərk edə bilər, lakin başa düşməlidir ki, Mərkəzi Asiyanın kosmik ölçülərinə nəzarət edə bilməz. Söhbət əsasən Rusiyadan gedir, o, faktiki olaraq artıq belə dözülməz yükü öz üzərinə götürüb”.*

Trofimçuk onu da bildirib ki, İrəvanda KTMT-nin Ermənistana yox, Qazaxıstana kömək etməyə getməsilə bağlı tənqidi fikirlər səsləndirilir: *“Onlar İkinci Qarabağ müharibəsini nəzərdə tuturlar. Amma məsələ təkcə Ermənistan-Azərbaycan müharibəsində deyil axı, 2018-ci ilin yazında bütün Ermənistanda təxribat və blokadalar baş verdi. Deyirlər ki, guya o vaxt KTMT belə tədbirlər keçirməyə hazır deyildi. Amma belə izahat çətin ki, kimisə qane etsin. Çox izahat var, amma hər şeyi daha da qarışdırırlar. Hələ bir faktı demirəm ki, “məxməri inqilab”ın lideri Paşinyan Nur-Sultanın xahişindən sonra ilk dəqiqələrdə az qala KTMT qoşunlarına rəhbərlik edirdi. Absurdluq”.*

# Azərbaycanda media var, lakin...

## Məmurlar niyə narahatdır?



Tapdıq ABBAS
Baş redaktor,
"Əməkdar mədəniyyət işçisi",
Pedaqoji fəlsəfə doktoru,
Qarabağ müharibə veteranı
t.abbas1952@list.ru

Yazımın əvvəlində medianın hazırkı durumu ilə bağlı tənqidi qeydlərə keçməzdən əvvəl bir neçə müsbət məqamı qeyd etməyi borc bilirəm. Məsələn, Ramiz Mehdiyev - Əli Həsənov - Vüqar Səfərli üçlüyünün mətbuat üzərində amirlik dövrü ilə müqayisədə ölkə prezidentinin gördüyü tədbirlər nəticəsində hazırda media sahəsində tənqidi yazılara qoyulan qadağanın götürülməsi, tənqidi yazıların saytdan zorla çıxarılması, tənqidə görə məmurların mediaya məhkəmə orqanları vasitəsilə təzyiq göstərmək halları xeyli azalıb.

Lakin medianın iqtisadi problemləri hələ də həllini tapmayıb. Jurnalistlər sosial problemlər içində boğulur. Medianın reklamla təmin olunması həll olunmamış qalır.

Ölkədə azad iqtisadiyyatın inhisarçı məmurlar tərəfindən boğulması reklam bazarının formalaşmasına imkan vermir və bu da medianın əsas iqtisadi mənbəyinin zəif olmasına gətirib çıxarır.

Azərbaycan dövləti coğrafi baxımdan Asiyaya aid olsada və fəaliyyət etibarı ilə Avropa məkanına daxildir. Ona görə də ölkədə Avropa dəyərləri prioritetdir. Avropa dəyərləri dedikdə, söz və mətbuat azadlığı önə çəkilir. Müasir dövrdə söz və mətbuat azadlığı təmin olunmayan ölkədə vətəndaş cəmiyyətinin formalaşması mümkün olmur.

Azərbaycan SSRİ dağılandan sonra müstəqillik qazanıb və müstəqil ölkə kimi Qərb dəyərlərinə üstünlük verərək bu məkana inteqrasiya yolunu seçib. Buna görə bir sıra beynəlxalq sənədlərə imza atan Azərbaycan həmin beynəlxalq sənədlərə uyğun öhdəlik götürüb.

Bu öhdəlikdən ən çox diqqət çəkəni isə, ölkədə söz və mətbuat azadlığına əməl edilməsidir. Beynəlxalq dəyərlərdən olan söz və mətbuat azadlığının təmin olunması üçün ölkədə qanun bazasının yaradılması zəruri şərtdir. Azərbaycanda "Kütləvi informasiya vasitələri haqqında" Qanun 1999-cu ildə qəbul olunub. Bu qanuna qəbul olunmasından keçən 22 il ərzində yüzə yaxın dəyişiklik edilib.



Lakin qanuna edilən dəyişikliklər ölkə mediasının fəaliyyətini müasir tələblərə uyğun tənzimləməyə imkan verməyib. Bunun üçün söz və mətbuat azadlığının qanunçuluq bazasının ölkədə yenilənməsinə zərurət yaranıb.

Ölkə Prezidenti 2021-ci ildə Medianın İnkişafı Agentliyini yeniləməklə media sahəsində ciddi islahatlara start verdi. Ötən bir il ərzində bu istiqamətdə bir sıra sərəncamlar imzaladı. Prezident "Media haqqında" yeni qanun layihəsini hazırlayan tərkib barədə də sərəncam imzaladı. Həmin tərkib bir neçə aydan sonra "Media haqqında" hazırladığı yeni qanun layihəsini hökumətə təqdim etdi.

Hökumət yeni qanun layihəsinin mətbuatda dərc olunub, ictimai müzakirəyə çıxarılması ənənəsini təmin etmədi. Əvəzində qanun layihəsi hakimiyyət nümayəndələrinin məhdud və qapalı şəraitdə müzakirəsi ilə kifayətləndi. Qanun layihəsinin cəmiyyətin və media camiəsinin geniş müzakirəsindən kənarda saxlanması ölkədə və dünyada bu qanun layihəsinin ciddi tənqid olunması ilə nəticələndi. Bu etiraz və tənqidlərə baxmayaraq, hakimiyyət ötən ilin sonunda "Media haqqında" qanun layihəsini hökumətin mövqeyini müdafiə edən media nümayəndələrinin iştirakı ilə Milli Məclisin komissiyalarının birgə iclasında qısa müzakirə edildi. İki gün sonra layihə Milli Məclisin plenar iclasının müzakirəsinə çıxarıldı və birinci oxunuşda qəbul olundu. Sonrakı həftə ərzində qanun MM-də ikinci və üçüncü oxunuşda müzakirə olunaraq qəbul olundu. "Media haqqında" yeni qanun yerli peşəkar mütəxəssislər, ABŞ Departamenti və Avropanın demokratik təsisatları tərəfindən ciddi tənqid olundu. Bu proses hazırda davam edir.

Media azadlığı indeksi reytinqinə görə ötən il Azərbaycan dünyada 180 ölkə arasında 168-ci sırada yer alıb. "Media haqqında" yeni qanunun müstəqil jurnalistlər, ekspertlər və beynəlxalq təşkilatlar tərəfindən ciddi tənqid edilməsi isə, bu il media azadlığı sahəsində Azərbaycanın dünyada ən aşağı reytinqə düşəcəyi gözlənilir. Buna görə, ölkə prezidentinin bu qanuna imza atacağı inandırıcı deyil və qanunun MM-ə geri qaytarılacağı ehtimalı yüksəkdir.

Azərbaycanın imza atdığı beynəlxalq sənədlərin tələbinə əsasən, ölkəmizdə "Diffamasiya haqqında" qanunun hələ də qəbul olunmaması da ölkəmizə beynəlxalq aləmdə mənfi rəy yaratmaq istəyənlərə əlavə arqumentlər verir.

Qeyd etdiyim mənfi hallarla yanaşı, ölkə prezidentinin təşəbbüsü ilə son iki ildə ölkədə söz və mətbuat azadlığı sahəsində xeyli müsbət addımlar atılması və bu addımların ilk bəhrələrinin cəmiyyətdə hiss olunması ölkə mediasının gələcək inkişafı barədə müsbət düşüncə formalaşmasına təkan verir.

Ölkədə rüşvətxorluğa və korrupsiyaya qarşı cənab prezidentin start verdiyi mübarizəyə dövlətin ciddi media orqanlarında geniş işıqlandırılması məmurların xoşuna gəlməsə də, hər halda onların mənfi fəaliyyətinə xeyli təsir etdiyi aydın hiss olunur.

Lakin əksər hallarda Media orqanlarının tənqidinə dövlət orqanları rəhbərlərinin lazımı reaksiya verməməsi, medianın məmurlara ünvanladığı sorğulara vaxtında cavab ala bilməməsi halları ölkədə geniş vüsət alıb. Məmurların mediaya göstərdiyi məsuliyyətsiz münasibəti bəzilərinin dözümlülük kimi dəyərləndirməyə cəhd edilməsi də medianın nüfuzunu aşağı salan uğursuz təşəbbüs olduğunu unutmamalıyıq.

**Sonda qeyd edim ki, sabiqlərin 25 il ərzində dərin böhrana saldığı ölkə mediasını qısa müddətdə böhrandan xilas etmək də asan iş deyil...**



Rövşən Kəbirli

# İçimdəki qazax

**Oxucum, qardaş qazax xalqının yaşadığı faciədən bəhs edən ötən yazımda da bildirdiyim kimi bugünlər 32 il əvvəlin o qanlı yanvarını sanki yenidən yaşayıram - məğlubiyyətin, çarəsizliyin doğurduğu hissləri. Elə bil içimdə ümidsiz vəziyyətdə olan bir qazax var-ürəyindən, başından vurulmuş, qan içində olsa da döyüşə atılmağa cəhd göstərən qazaxlı bir gənc, yaxud elə özüm yaşda bir ağsaqqal.**

Nəyi demək istəyirəm? Bu həssas məqamda bizim media bilərəkdən yaxud bilməyərəkdən informasiya blokadasında olan, yerli satqınlara və yadelli işğalçılara qarşı ciddi direniş göstən, Qazaxıstan vətəndaşlarının azadlıq mübarizəsini gözardı edib, Rusiyadan və Qazaxıstanın ölkəsinin müstəqilliyini Moskvanın ayaqları altına atmış rəsmi qurumlarının yaydığı xəbərləri tirajlaması adamın içini göynədir. Sizin vicdanınız necə yol verir ki, manqurt Qazax hakimiyyəti və imperiyanı bərpa etməyi hədəfləyən Putinizmin təbliğat ruporuna qoşulub sosial ədalətsizliyə və sonra da ölkəsinin müstəqilliyini məhv edənlərə qarşı azadlıq mübarizəsinə qalxmış, bu yolda şirin canından keçərək şəhid olan, həbs edilənləri terrorçu, ekstimist kimi qələmə verirsiniz? Allah xatirinə belə şərəfsizlik etməyin! 32 il əvvəl yaşadığımız anoloji faciəni unutmamısızsa belə alçaqlığa imza atmayın! Bütöv bir millət terrorçu, ekstrimisdirsə belə çıxır ki, milli satqın Tokayev o dövləti idarə edən şəxs olaraq terrorçubaşıdır. Məgər qanmırsınız ki, bugün Qazaxıstanda həm də Azərbaycanın müstəqil dövlət kimi yaşayıb, yaşamayacağı məsələsi həll olunur? Qazax xalqına maddi kömək edə bilmiriksə heç olmasa mənəvi dayaq olaq, onların canı bahasına apardıqları haqq savaşına kölgə salmayaq.

Hesab edirəm ki, ancaq manqurtlar, anasının əmcəyini kəsənlər və bir də rus sevdalılar Moskvanın və Tokayevin dezinformasiyasın sevərək tirajlaya bilər. Məgər bizlər bu sadə həqiqəti anlamayacaq qədər cahilikmi Moskva və onu ölkəsinə çağıran Tokayevin xalqa "terrorçu" deməklə rus işğalını pərdələmək və təbii ki, öz hakimiyyətini qorumaq olduğunu bilməyək?!

*Unutmayın cənablar: Moskva Qarabağda bizim qələbəmizi əlimizdən aldığı kimi, bugün də Qazax xalqının müstəqilliyini əlindən alır!*



# "RUSİYA BU ADDIMI İLƏ QAZAXISTANI İTİRDİ"

### *"Proseslər anti-Rusiya xarakteri alacaq"*

**"Moskva MDB ölkələrində "rəngli inqilabların" qarşısını almaq metodlarını işləyir. Bunun üçün postsovet ölkələrinə təlimatlar göndərir. Xüsusi xidmət orqanlarının kanalları ilə operativ əlaqəni davamlı olaraq saxlayırlar".**

Bu fikirləri Azad Demokratlar Partiyasının (AzDP) sədri Sülhəddin Əkbər Qazaxıstanda baş verən hadisələrə Rusiyanın müdaxiləsini "sherg.az" saytına dəyərləndirərkən dilə gətirib. O, qeyd edib ki, bütün avtoritar rejimlər və onların başında duran Rusiya xalqların meydanlara çıxmasına, hakimiyyətlərin demokratik seçki tələbləri ilə dəyişdirilməsinə qarşıdır. ***"Ona görə də hamısı bunun üçün səfərbər olunub. Belə etirazlar yubanmadan, dərhal demokratiya işartıları kimi nəzərə alınır və elə rüşeym halındaca məhv edilir",*** - partiya sədri əlavə edib.

Qazaxıstanda baş verən hadisələrin gerçək səbəbləri barədə suala cavabında S.Əkbər bildirib ki, ölkədə yaranmış vəziyyət tam aydınlaşmayıb: ***"Proseslərlə bağlı məlumatlar dəqiq deyil. Ona görə də hadisə barədə konkret nəsə söyləmək erkəndir. Bir neçə gündən sonra Qazaxıstanda gerçəkdə nələrin baş verdiyi haqda daha dəqiq fikir söyləmək olar. İlkin fikir, rəy odur ki, Qazaxıstanda etiraz hərəkatı iki yerə ayrılmalıdır.***

***Birincisi, Qazaxıstanın qərbində başlayan və dinc tələblərin irəli sürülməsi ilə davam edən aksiyalardır.***

***İkincisi isə, Almatıdakı etirazların geniş miqyas alaraq bütün ölkə ərazisinə yayılmasından sonra rejimin və onların arxasında duran Rusiyanın məqsədyönlü şəkildə cəmiyyətdə provokativ addımlara əl atmasıdır. Sonradan meydana çıxan təxribatçı davranışlar etiraz aksiyasını gözdən salmağa, dinc əhalinin gözünü qorxutmağa hesablanmışdı. Ən başlıcası isə xarici müdaxilənin "legitimləşdirilməsi" ilə KTMT-nin Qazaxıstana girişinə imkan yaratmaq qarşıya məqsəd qoyulmuşdu".***

Sülhəddin Əkbərin sözlərinə görə, Rusiyanın Qazaxıstana hərbi müdaxiləsinin əsaslandırılması üçün ***"beynəlxalq terror təhdidindən"*** danışmaq vacib idi.

***"Guya ölkəyə Qərbdən, yaxud başqa yerdən xarici müdaxilə olduğuna görə KTMT nizamnaməsinin 4-cü bəndi tətbiq olunub. Üstəlik, Qazaxıstan prezidentinin də müraciəti əsas götürülüb. Bu "legitimliyi" haqlı olaraq şübhə altına alanlar Qazaxıstan prezidentinin belə bir səlahiyyətinin olmadığını deyirlər. Çünki bunun üçün, yəni xarici qoşunların ölkəyə daxil olması üçün parlamentin təsdiqi mütləqdir. Amma Tokayev rejimi və arxasında duran Rusiya heç nəyə məhəl qoymadan bu cür addımlar atdılar. 20 Yanvarı görmüş Azərbaycan xalqı üçün Qazaxıstandakı mənzərə kifayət qədər aydındır",*** - partiya sədri vurğulayıb.

***"Türk Dövlətləri Təşkilatının ən önəmli üzvü - Qazaxıstan itirildimi? Rusiya öz məqsədinə çatdımı"*** sualını S.Əkbər belə cavablandırıb: ***"Çoxları düşünür ki, Rusiya Qazaxıstana qoşun yeritməklə öz mövqeyini gücləndirdi. Mən tam tərsini düşünürəm. Əksinə, Rusiya bu addımı ilə Qazaxıstan xalqını itirdi. Necə ki, 20 Yanvardan sonra Azərbaycanda xalq hərəkatı, milli azadlıq hərəkatı geniş vüsət aldı, bundan sonra Qazaxıstandakı proseslər anti-Rusiya xarakteri alacaq. Qazaxıstanda da həqiqi milli azadlıq və demokratik hərəkatın formalaşmasını müşahidə edəcəyik".***

# ADDIM-ADDIM QAZAXISTAN HADİSƏLƏRİ

**1) Hadisənin səbəbləri**

- Qazaxıstanda işğal və faciə ilə nəticələnən hadisənin baş verməsinin əsas səbəbi bu ölkədəki zülmdür. Zülm anlayışının içində bunlar var: *a) siyasi zülm – qazax xalqı hakimiyyətin qaynağı olmaq imkanından məhrum edilmişdir. Nazarbayev 30 il ərzində bütün səviyyələrdə olan seçkiləri (prezident, parlament, bələdiyyə) saxtalaşdırmış, hakimiyyətin qanadlarını öz iradəsinə uyğun biçimdə formalaşdırmış, xalqın seçmək və seçilmək imkanını əlindən almış, nəticədə, heç bir dövlət qurumu xalqın hüquqlarını qorumaq vəzifəsini üzərinə götürməmiş, bu da siyasi gərginliyə yol açmışdır (Tokayev də bu saxtakarlıq siyasətini davam etdirmişdir). Nazarbayev formal olaraq prezidentlikdən əl çəksə də, özü üçün daha böyük vəzifə ayıraraq ölkəni pərdə arxasından idarə etmiş, hakimiyyətin zirvəsində bölünmə, gizli, amansız*



*mübarizə ortaya çıxmışdır. Nazarbayev özünü bütləşdirmə siyasəti tətbiq etmişdir: heykəllərini qoydurmuş, xalqın atası olduğunu elan etmiş, ölkənin paytaxtının adını dəyişdirib Nursultan qoymuş, adı yüzlərlə quruma verilmişdir. Ailəsinin ölkə daxilində və xaricdəki sərvətini hesablamaq isə mümkün olmamışdır. Nazarbayev özünü bütləşdirməklə qazax xalqına siz mənim köləmsiniz mesajını verdi – harada bütləşdirmə varsa, orada kölələşdirmə də var - qazax xalqı isə onun köləliyini qəbul etmədi. Yeri gəlmişkən, Nazarbayevin milliyyətçi olduğunu söyləyirlər. Bu təsbitin yanlış olduğu üzə çıxmışdır: milliyyətçi olan ölkəsini bu vəziyyətə salmaz, xalqın dar günündə qaçmaz, gizlənməz, susmaz. Nazarbayevin milliyyətçiliyi xalqı aldatmaqdan başqa bir şey deyil. Xalqına ədalət və azadlıq vermək istəməyən liderlər ya milli duyğuları, ya da dini duyğuları körükləyirlər; b) ictimai zülm – Qazaxıstanda tayfabazlıq, yerliçilik, rüşvət, tanışlıq ölçüsü ilə insanları vəzifələrə təyin etmək dövlət siyasətinə çevrilmiş, hakimiyyətin bütün qolları rüşvətə bulaşaraq öz vəzifəsini yerinə yetirmək imkanını itirmiş, iş əhlinə verilməlidir ölçüsü pozulmuş, nəticədə, xalqla hakimiyyət arasında uçurum dərinləşmişdir; c) hüquq sistemindəki zülm – hüquq mühafizə orqanları, o sıradan məhkəmələr siyasi hakimiyyətin cəza qurumu kimi fəaliyyət göstərmiş, ədaləti, insan haqlarını təmin etməmişdir; d) iqtisadi zülm – Qazaxıstanda xalqın müəyyən iqtisadi imkanları olsa da, halal ruzi qazanmaq yolları məhdudlaşdırılmış, insanlar əməyinin qarşılığını ala bilməmiş, paralel olaraq da hakim elitaya bağlı olanlar ölkənin sərvətlərini talan etmiş, nəticədə, zənginlərlə yoxsullar arasında uçurum dərinləşmişdir. Bunun bir qanun-ölçü olduğunu unutmayaq: hakimiyyətin xalqa xidməti sevgiyə, o da itaətə, hakimiyyətin xalqa zülmü də nifrətə, o da üsyana yol açır;*

- Qazaxıstandakı dinc etirazlar niyə üsyana çevrildi? Səbəbləri sıralayaq: *a) ölkədə ciddi, güclü siyasi müxalifətin formalaşmasına imkan verilmədi. Xalqı idarə edəcək, etirazları doğru hədəfə yönəldəcək siyasi təşkilatlar, liderlər olmadığından etiraz yolundan çıxarılmış, məqsədli biçimdə üsyan olmasının yolu açılmış, həddini aşan ziddinə dönər qanunu işə düşmüş, etiraz inqilaba deyil (inqilabın proqramı, liderləri, təşkilatları, aydın siyasi hədəfləri olur) üsyana çevrilmişdir; b) Qazaxıstanda azad mətbuatın olmaması, dinc mitinqlərin keçirilməsinə izin verilməməsi xalqı sıxıntılarını ifadə imkanından məhrum etmiş, yığılan mənfi enerji atəş olmuşdur; c) zülmün dərinliyi qəzəbə, nifrətə, düşmənliyə, qisasa yol açmışdır; d) etirazın üsyana çevrilməsi üçün şüurlu biçimdə kənardan müdaxilə olmuşdur. Bu müdaxilənin ünvanı Rusiya və ona bağlı Qazaxıstan hakimiyyətidir. Dəlillərimizi ortaya qoyaq: 1) Tokayevin xalqın tələbinə öncəki münasibəti ilə sonrakı münasibəti arasında yerlə göy qədər fərq var. O, etirazlar başlayanda deyirdi ki, xalq haqlıdır, tələbləri yerinə yetiriləcək. Tokayev hökuməti istefaya göndərdi, Nazarbayevi vəzifəsindən azad etdi, islahatlar olacaq dedi; 2) Tokayev etirazlar güclənəndən sonra üslubunu, davranışlarını dəyişdi. Səbəb Rusiyanın prosesə müdaxiləsi və onun hakimiyyətdən getmə təhlükəsinin ortaya çıxmasıdır. Rusiya gördü ki, etirazlar güclənsə, üç mümkün nəticə ola bilər: a) Qazaxıstandakı hakimiyyət istefaya gedər; b) ya da yeni seçkilər təyin olunar; c) ya da ki etirazçılar hakimiyyəti ələ keçirərlər; Bu üç halın üçündə də Rusiyanın Qazaxıstanda əsas dayağı olan hakimiyyət əldən gedər. Rusiyanın Qazaxıstanda öz adamını seçkilər yolu ilə hakimiyyətə gətirmək imkanı olmadığından bircə yolu qaldı: hərbi müdaxilə, o bu addımı atdı, ona bağlı siyasi rejimi qorudu, hakimiyyət əldən gedərsə, Qazaxıstan da əldən çıxar ölçüsü ilə hərəkət etdi. Rusiya etirazları başladan dövlət deyil, etirazları üsyanı fürsətə çevirən dövlətdir – içəridə qaynağı olmayan heç bir xarici müdaxilə, siyasi oyun uğur qazana bilməz; d) Rusiyanın müdaxiləsinin yolunun açılması üçün də etirazların üsyana, talana çevrilməsinə, xalqa terrorist deyilməsinə, bu hərəkat kənardan idarə olunur mifinə, xaricdən gələn terroristlər Qazaxıstana yerləşmişlər yalanına ehtiyac var idi. Bu iddiaları ortaya atan Tokayev indiyədək heç bir inandırıcı fakt ortaya qoya bilməmiş, heç bir xarici dövlətin adını çəkməmişdir. Tokayevin Qazaxıstanın yüz minlik ordusu olduğu halda niyə Rusiyadan hərbi yardım tələb olunmuşdur sualına cavab vermək imkanı yoxdur. O, indi də deyir ki, terroristlərin meyitləri meyitxanalardan oğurlanmışdır. Göstərilən səbəblərlə etiraz yolundan çıxarıldı, Rusiyanın müdaxiləsinin önü açıldı, ideoloji zəmin hazırlandı, Rusiya Qazaxıstanı işğal etdi, Qazaxıstanı Rusiyaya bağlayan siyasi rejimi qurtardı.*



**Siracəddin Hacı**

**Qazaxıstanda hakimiyyətin ədalətsiz sosial-iqtisadi siyasətinə etiraz edən insanların qiyamı amansızcasına yatırıldı. Etirazçılar isə terrorçu damğası ilə həbsxanalara atıldılar.**



# Qazaxıstan faciəsi

## Sosial ədalət uğrunda mübarizə nədən faciəyə çevrildi?

Bu faktın özü onu deməyə əsas verir ki, özünü qazax xalqının "ümümmilli lideri", "xalqın atası" kimi qələmə verən Nursultan Nazarbayevdən sonra hakimiyyətə gələn Qasım-Comərd Tokayev xalqın etimadını və etibarına doğrulda bilmədi. Qazaxıstanda yaşayan soydaşlarımızdan birinin sözlərinə görə, Qasım-Comərd Tokayev öz fəaliyyətində Nursultan Nazarbayevin kursundan kənara çıxa bilmədi, əksinə həmin siyasəti daha qəddarcasına həyata keçirməyə başladı. Tokayevin hazırda Qazaxıstanda həyata keçirdiyi siyasət dünya birliyində qəbul olunmuş demokratik prinsiplərə yox, eks-prezident Nursultan Nazarbayevin tapşırıq və tövsiyyələrinə əsaslandığından, xalqın narazılığına səbəb olub. Qazaxıstanda yaşayan soydaşımız Qadji Axmat Şarafoviçin dediklərindən belə anlaşılır ki, Qazaxıstanda baş verən xalq üsyanı, məhz hakimiyyətin həyata keçirdiyi diktatura siyasətinin nəticəsidir. Qazax xalqı onun rusiyayönümlü, xalqın hissiyatına toxunan və heç bir əsaslandırması olmayan qərarlarına etiraz edərək küçələrə çıxdı. Bu etirazların daxildən kükrəyən alovun partlayışına isə ölkədə təbii qazın qiymətinin artırılması oldu. Bu qərardan sonra Qazax xalqının səbr kasası daşdı və onlar öz etirazlarını bildirmək üçün meydanlara çıxdılar. Axmat bəy deyir ki, bu faciədə ən azından 500 insan həlak olub, minlərlə insan yaralanıb və xəsarət alıb. O ki qaldı həbs olunanlar arasında çox sayda xarici ölkə vətəndaşların olmasına, bu da mövcud hakimiyyətin irəli sürdüyü yalandır. Əslində isə hakimiyyətin xarici vətəndaşlar dedikləri şəxslərin böyük əksəriyyəti N.Nazarbayev və Tokayev zülmündən xarici ölkələrə qaçmaq zorunda qalan qazaxlardır. Bu faktı təsdiqləyən bir misal isə daha çox diqqət cəlb edir və quraşdırılma olduğuna heç kimdə şübhə yaratmır. İxtişaşlar zamana həbs olunan Qırğızstanın tanınmış cazmen-pianoçusu Vikram Ruzaxunov ciddi təzyiq və işgəncələr altında belə bir açıqlama verib ki, məni buraya təxribat törətmək üçün dəvət ediblər və bunun müqabilində 200 dollar pul almışam. Qırğızstan hökuməti isə bu böhtana etiraz edərək Qazaxıstan hökumətinə nota verərək bildirib ki, Vikram Ruzaxunov bir konsertindən 15-20 min dollar qazanır, onu nə vadar edib ki, 200 dollara görə haradasa, təxribat törətsin (son məlumatlara görə Vikram Ruzaxunov artıq azadlığa buraxalıb).

Rusiyadan yaşayan Qazax jurnalist Almurat Canıbek hesab edir ki, bu üsyanın məğlubiyyətinə səbəb olan əsas amil, ölkədə bu kimi halların qarşısına ala biləcək, xalqın etimadını qazanmış müxalifətin olmamasıdır. Jurnalist həmçinin qeyd edir ki, bütün müsəlman ölkələrində, ələlxüsus da postsovet məkanında dövlət başçıları ölkədə konstruktiv müxalifətin formalaşmasından əndişələnir və hakimiyyəti tam olaraq sona qədər idarə edə biləcəklərini düşünürlər. Məhz bu düşüncə də, sonunda belə idarəolunmaz ixtişaşlara və faciələrə səbəb olur.

Tarixin bütün dönəmlərində baş verən xalq üsyanlarının səbəblərini araşdırsanız onun kökündə, məhz despotizmin və diktaturanın durduğunu görəcəksiniz. Despotizmin və diktaturanın hökm sürdüyü dövlətlərdə isə heç zaman hakimiyyətin demokratik yolla dəyişməsinə imkan verilmir. Öz gücünə və yaxınlarının ona təlqin etdiyi əvəzedilməzliyinə güvənən diktator xalqın istək və arzularını ayaqları altına ataraq, hakimiyyətdən və kreslodan (taxt-tacından) elə yapışır ki, onu oradan qoparmaq üçün üsyan və qiyamlar qaçılmaz olur. Bu yolla hakimiyyətdən kənarlaşdırılanların isə aqibəti heç də yaxşı sonluqla nəticələnmir. Məsələn, biz yaxın onilliklərdə Əfqanfstanda, İraqda, Liviyada, Misirdə və s. ölkələrdə baş verən faciələrə diqqət etsək, diktaturanın və xalqın qəzəbinin nə ilə nəticələndiyini açıq şəkildə görə bilərik. Amma bir çox müasir və demokritiya pərdəsi arxasında gizlənən diktatorlar bundan nəticə çıxarmaq istəmirlər.

Mənə belə gəlir ki, bu heç də hər zaman ölkənin birinci şəxsinin anbisiyalarına bağlı məsələ deyil, dövlət idarəçilik sisteminin prinsiplərinə bağlı məsələdir. Tarixə diqqət etsək görərik ki, hər bir zalım hakimin də yanında, onun sözünü eşidən, onun yanlış qərarına etiraz edə bilən, aqil bir məsləhətçisi olur. Müasir idarəçilik sistemində isə belə şəxslər gözə dəymir. Olsalar belə, az bir zaman kəsiyində onları idarəçilik sistemindən uzaqlaşdırırlar.

Ailə-klan, döstluq, qohumluq prinsipləri üzərində qurulan və heç bir haqlı irad və etirazı qəbul etməyən bir idarəçilikdən isə səhvlər qaçılmaz olur. Bu səhvlər isə həm hakimiyyət, həm də xalq üçün faciəyə çevrilir.

Qazaxıstanda baş qaldıran xalq üsyanı da, məhz bu kimi səhvlər üzündən vaş verdi və sonu da facıə ilə bitdi.

Görünəni isə odur ki, Qazax xalqının etirazını bu gün də normal şəkildə heç kim araşqdırmaq fikrində deyil. Çünki hakimiyyət hərisliyi və despotik anbisiyalar buna imkan vermir.

Bəli, belə acınacaqlı halların, məhz müsəlman ölkələrində baş verməsi, həqiqətəndə ağrıvericidir. Müsəlman olan şəxs vəzifəsindən, cəmiyyət də tutduğu mövqeyindən asılı olmayaraq, ən azından dinimizin əsaslarına hörmətlə yanaşmalıdır. Əlində olan səlahiyyətlərindən istifadə edib xalqı əzməməli, ona zülüm etməməlidir. Xalqın sərvətini talayaraq, onu ac-yalavac saxlamamalıdır.

Bu gün bütün xristian dünyası Qazaxıstanda baş verənlərə sevinir, amma özlərini elə aparırlar ki, güya bundan çox təəssüflənirlər.

Sonda onu da qeyd etmək istəyirəm ki, son zamanlar bir Türk birliyinin yaradılması istiqamətində atılan addımlar da, Qərbdə, xristian dünyasında ciddi əndişələr yaradır. Bu da məlumdur ki, müasir zamanda bu birliyi at belində, əlində qılınc yaratmaq mümkün deyil.

Bu birlik Türk dövlətlərinin həmrəyliyi, Türk xalqlarının zəkası, mədəniyyəti, bütün dünyada qəbul oluna tolerantlığı ilə yarana bilər.

Qazaxıstanda baş verənləri isə hakimiyyətin zorakılığına qarşı xalq üsyanı kimi qəbul etmək və bundan nəticə çıxarmaq lazımdır. Çünki heç bir xalq, heç bir din zorakılığı qəbul etmir. Ələlxüsus da, hakimiyyətdən gələn zorakılığı. Hakimiyyətlər ona görə yaradılır ki, xalqı idarə etsin, ona zülm etməsin. Əgər hakimiyyətdə olan kimsə, bu missiyanı yerinə yetirə bilmirsə getməlidir, getməyəcəksə, əmin olun ki, onu gec-tez göndərəcəklər. Bu dəfə ola bilsin ki, rusun, erməninin və digər xristianların köməyi ilə xalqını susdurdun. Gələn dəfə də belə olacağını heç düşünmə. Rusun, ermənininin gücünə yox, öz xalqının gücünə inan, onun səsini eşit.

**P.S.** *İnternetdə apardığım axtarışlar nəticəsində əldə etdiyim məlumatlara görə, Qazaxıstan ərizisinə görə dünyada 9-cu, sərvətlərinə görə isə 7-ci yerdə qərarlaşır. Əhalisi isə heç dünya əhalisinin 1 faizini təşkil etmir, cəmi 19 milyon nəfər. Belə bir dövlətdə insanlar nə üçün kasıb yaşamalıdırlar? Qazaxıstanın dövlət rəhbərliyi vaxtında bu suala cavab tapsaydı, mövcud hadisələr də baş verməzdi.*



**Yusif Seyid**

## KTMT çıxır: Qazaxıstan əvəzində nə verdi?

**Qazaxıstan Prezidenti Qasım-Jomart Tokayev KTMT qoşunlarının 2 gün sonra Qazaxıstandan çıxarılmağa başlanacağını, prosesin 10 gün içində bitəcəyini açıqladı.**

Baş verənlərin hədəfləri fonunda rus qoşunlarının ölkədən çıxması Moskvanın qarşılığında alacaqları ilə bağlı ola bilər:



**Birincisi,** Qazaxıstanın Belarus ssenarisi üzrə İttifaq Dövləti müqaviləsi imzalamasıdır: Putin Lukaşenkonun dili ilə artıq bunun mesajını verib və mümkündür ki, yaxın dövrdə məsələ gündəmə gəlsin;

**İkincisi,** rus mədəni təsirinin saxlanılmasıdır: rus dilinin rəsmi statusu qaytarılmasa belə, tədris prosesində genişləndiriləcəyi gözləniləndir. Tokayev də bildirdi ki, Rusiya texniki universitetlərinin Qazaxıstanda filialları açılacaq;

**Üçüncüsü,** Rusiya hərbi bazasının yaradılması ola bilər.

Hərbi bazanın yaradılmasının mümkünlüyü fonunda "rus qoşunları Qazaxıstandan tamamilə çıxacaqmı" sualı diqqət çəkir. Rəsmi məlumata görə, Qazaxıstana gələn KTMT kontingentinin sayı 2,4 min nəfərdir, bunun da böyük hissəsi rus hərbçiləridir. Qeyri-rəsmi məlumatlarda isə Rusiyanın 10 minə yaxın hərbçi göndərdiyi bildirilir. İstisna deyil ki, KTMT qüvvələri ölkədən çıxsa da, rus hərbçiləri qeyri-rəsmi formada qalacaq.

***Asif Nərimanlı***




## Vətən yolunda şəhid olmuş Vətən sevdalısı

**Lənkəran rayonunun İstisu qəsəbəsində dünyaya göz açmış Zaur Kamil oğlu Ağalı çox qısa bir ömür yaşadı. Bu işıqlı dünyaya gəlməyi- getməyi cəmi 24 il çəkidi. Fəqət, Vətən, yurd sevgisi Zaura elə bir mənəvi ucalıq gətirdi ki, şərəfli ömür yolu Azərbaycan durduqca öz milləti üçün əbədi olacaqdır. Bu Vətən sevdalısı İkinci Qarabağ savaşında torpaq uğrunda canından keçməklə tarixin səhifəsinə öz adını ləyaqətlə yazdı. Belə də olmalı idi. Çünki anadan qəlbi işıqlı doğulmuş Zaur həyatının mənasını Vətəninin müqəddəsliyinə tapınmaqla yaşamaqda görürdü.**

Zaur Ağalı 2014-cü ildə orta məktəbi bitirib Vətənə gərək olmaq, adamlara fayda vermək amalı ilə müstəqil həyata qədəm qoyur. Qəlbi sevdalı gənci yaşına uyuşmayan daxili böyüklüyü, mənəvi saflığı, qurub-yaratmaq həvəsi el obaya dərindən sevdirir. 2015-ci ildə Vətəni üçün yaşamağı bacaran layiqli bir övlad kimi ordu sıralarına gedir. Doğma Azərbaycanın qarşısında əsgəri borcunu vicdanla, ləyaqətlə yerinə yetirir, hər an Qarabağı işğal altında saxlayan murdar niyyətli erməni faşistlərinə qarşı amansız olmağa and içir. Ən əsası nümunəvi xidmət Zaurun Vətəninə, torpağına necə bağlı olduğunu tam sübut edir. Bununla həm də ailəsinə, Lənkəran elinə baş ucalığı gətirir.

Əsgərliyi başa vuran Zaur zəhmətdən yapışır. Hər işi, əməli ailəsinə, ətrafına, yurduna, millətinə sonsuz sevgidən yaranır. Qurub-yaratmaqla xoş güzəran keçirir, gözəl əxlaqı, insanpərvərliyi dillərdən düşmür. Bütün bunlarla bərabər erməni dığalarının xəyanətkar hərəkətləri Zauru həmişə düşündürür, elə işğal altında qalan Vətən torpaqlarının azadlığı naminə 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin tərkibinə yazılır. Və ön xətdə yerləşən hərbi hissədə düşməndən qisas almağa hazırlaşır...

Vətən müharibəsi başlananda Zaur Ağalı qeyrətli oğlanlar sırasında düşmənlə ölüm-dirim savaşına birinci atılır. Cəbrayılın, Füzulinin, Zəngilanın azadlığı uğrunda müharibə meydanlarında böyük şücaət göstərir. Döyüş yoldaşları ilə birlikdə yağıya vurduğu sarsıdıcı zərbələr hesabına hər üç rayonda Azərbaycanın üç rəngli qələbə bayrağı dalğalanır. Beləcə də, neçə-neçə döyüşdən zəfərlə çıxan igid əsgər oktyabrın 22-də şəhidlik zirvəsinə ucalır...

Bəli, Zaurun şəhidliyi Vətənə sevgidən, torpağa, yurduna olan sonsuz məhəbbətdən yarandı. Buna görə də onun adı qəhrəmanlıq simvoluna dönərək Lənkəranlıların dilindən düşmür.

İgid əsgər ölümündən sonra dövlət tərəfindən "Vətən uğrunda", Cəbrayılın və Qubadlının azad olunmasına görə medallarla təltif olundu.

**Zəfər Orucoğlu,**

# Zərif adlananlar...

Dünyaya insan kimi yaşamaq üçün gələnlərin əksəriyyəti bundan məhrum olduğunu özünü dərk edəndən anladı.

Bəli, ətrafımızda elə insanlar çoxdur. Diqqət etsək, əsl insanların adına, mahiyyətinə uyğun yaşamaqdansa, zillət içində olduğunu görərik.

Bugünlərdə deyil, lap çox əvvəldən onların həyatını müşahidə edərkən, elə indicə dediyim qənaətə gəlmişdim.

Keçmiş özlüyündə olduğu kimi qalır, bugünü təsvir edəcəyəm, gələcəyin necə, nə təhər olacağını da heç birimiz deyil, Allah bilir...

Uzağa getmirəm, hamının tədris ilində gündəlik olmasa da, həftənin beşaltı günü mütləq çıxdığı məktəb yollarına baxaq. Ordan keçənləri, əksəriyyəti analar olan valideynləri qadın deyil, vahid bir ad birləşdirir - əzabkeşlər!

Məktəblərin həyətində az qala eyni formada, eyni paltarda, ayaqqabıda, duruşda, baxışda olan analar sanki yüzlərlə, minlərlə şagirdin deyil, təkcə bir uşağın valideynidir. Çünki onların hamısını eyni qayğı, eyni problem, eyni qarğaşalar, əziyyətlər birləşdirir, eyniləşdirir.

Diqqət etmisinizsə, məktəbli anaları əl çantası götürmür, onlar övladlarının mənasız, lazımsız, əhəmiyyətsiz vəsaitlərlə, əlavə kitablarla, daha nələrlə doldurulmuş ağır çantalarını daşıyır...

Hər biri azyaşlı, yaxud,

## Məhrumiyyətdən güc alar...



yuxarı yaşlı şagirdlərin çəkisinə qeyri-mütənasib olan çantalar, məgər sizi anaların "zərif" çiyinlərinin vaxtından əvvəl sıradan çıxması, qəddinin əyilməsi üçünmü istehsal edirlər?

Analar olmasa, övladlar çəkəcək bu zülmü, əziyyəti. Nəticə də sonda deyil, elə indidən göz qabağındadır - belləri, kürəyi əyri uşaqları nə vaxtadək həkimlərə daşıyasıdır biçarə valideynlər?

Unun qiymətinin bahalaşması çörəkdən sonra məktəb bufetlərində satılan müxtəlif adlı məhsulların qiymətində "zühur" edib. İndi valideyn ol və uşağa başa sal ki, dünən 30 qəpiyə aldığın bulkanı, smiti bu gün 60 qəpiyə ala bilmirsən. Axı hər evdən də məktəbə yalnız bircə uşaq getmir ki.

60 qəpikdən başlayan qiymətlər məhsulun çəkisinə, çeşidinə, tərkibinə uyğun neçə manatadək yüksəlincə, valideyn adlanan şəxs bilmir evə çörək, yoxsa övladına məktəbdə yeyəcək alsın...

Analar məktəb həyətini müzakirə yerinə-məkanına çevirsələr də, müsbət nəticə hasil olmur. Çünki qiymətləri artıranda onların, ümumiyyətlə, kimsənin rəyini soruşmayıblar. Maraqlı olan işin bu tərəfi olmayıb. Elə olan da əzabkeş, biçarə təbəqəyə olub...

Böyüyün kiçilmiş məktəbli formasını evin daha balacasına geyindrməklə ailə büdcəsinə qənaət edən valideyn-analar...

İsrafçılığın günahdan savayı, yaşam şərtlərinə də tam zidd olduğunu anlayan insanlar...

Keçənilki onlayn dərslərdən qalma dəftərin boş qalan vərəqlərindən yeni dəftər düzəldən analar...

Yonulmaqdan kiçilmiş, övladının barmaqlarından sıçrayıb çıxan karandaşı rənglərinə görə "göyqurşağı kimi gözəldir, rəngarəngdir" deyə, balalarına təqdim edən əlacsızlar...

Yağışda uşaq çətirlərinə həsrətlə baxan övladlarına gələn il mütləq ondan alacağına söz verən, hər il də bu sözə "xəyanət" edən qadınlar...

Deməyə söz çox. Lakin valideyn-analardan gələn o sözləri rahatlıqla qarşılamaq çox çətin...

Bir belə çətinlik, problem varkən, qiymətləri qaldırmaqla görəsən, nəyə nail olundu?

İnsanın qiymətinin ona xidmət etməlilərdən daha baha olduğunu anlayan varmı, əcəba?

Zərif adlandırılan qadın gözlənilməz həyat situasiyasına uyğun mütləq şir kimi döyüşkən, canavar kimi yırtıcı, yaxud, dovşan kimi qorxaq olmalıydımı acımasız, mümkünsüz həyat şərtlərinin qarşısında?

...Onların konkret adını çəkmədim, çünki qeyd etdiyim kimi, bu gün hamısının qadınlıqdan yan keçərək vahid bir adı var - əzabkeşlər!

Onların dediyinin hamısını da söyləmədim, deyiləni, yaşananı sadəcə, sözə çevirməyə çətinlik çəkdim...

**Qadın, zərif cins olaraq dünyaya gələnlərin məhrumiyyətdən güc almasını, adından məhrum olmasını seyr etmək, görmək necə də acı...**


Nigar Orucova

# Şəhidlərin orden və medallarının təqdimat mərasimi

Astarada Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək igidlik, mərdlik göstərmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirərək şəhid olmuş Astaralı hərbiçilərin orden və medallarını onların valideynlərinə və doğmalarına təqdim olunma mərasimi keçirildi.

Təqdimat mərasimində öncə rayon icra hakimiyyətinin başçısı Qəzənfər Ağayev çıxış edərək dedi:- Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuzun qəhrəman zabit və əsgərləri fədakarlığı göstərərək 44 gün ərzində Vətən torpaqlarını işğaldan azad edərək zəfər tarixi yazdı. Bu haqq savaşında rayonumuzun qanları ilə tarix yazan qəhrəman oğullarının da misilsiz əməyi vardır. 8 noyabr Zəfər Günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vətən müharibəsində döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Hərbi Qulluqçularının orden və medallarla təltif edilməsi haqqında Sərəncam imzalayıb. Vətənin yüksək mükafatlarına layiq olunanlar arasında astaralı qəhrəman oğullarının da olması bizdə böyük fəxarət hissi oyadır. Prezidentin Sərəncamına əsasən şəhid kapitan Kamran Qılman oğlu Fərəcov, əsgər Elnur Qədir oğlu Əbdülov 3-cü dərəcəli "Rəşadət" ordeni , kapitan Şahnur Şahin oğlu Hüseynov, gizir Nadir Ağadadaş oğlu Xəlilov, əsgər Sadiq Şahin oğlu Bağırzadə "Azərbaycan Bayrağı" ordeni , kiçik çavuş Məhəmməd Cavanşir oğlu Babazadə "İgidliyə görə" medalı alanların sirasında idilər. İcra başçısı müharibədə hünər göstərib ad qoyan şəhidlərin təltiflərini onların valideynlərinə və doğmalarına təqdim etməklə Vətən üçün vətənpərvər, ləyaqətli övladlar tərbiyə etdikləri üçün onlara minnətdarlığını bildirdi.



**Zəfər Orucoğlu,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# Oxumuram, əl çəkin...

## İnsanlar nə üçün qəzet, kitab oxumur?

**Hesab edirəm ki, son onilliklərin ən aktual problemlərindən biri də, insanların qəzet, kitab oxumaqdan uzaq düşmələridir. Ola bilsin kimlər üçünsə, bu problem deyil.**



Bəziləri də belə düşünə bilərlər ki, insanlar nə hayda, sən nəyin hayında. Mən bütün insanların fikir və düşüncələrinə hörmətlə yanaşıram və hesab edirəm ki, hər bir mənfi düşüncənin özündə də, müsbət nəsə tapmaq olar. Amma oxumamağın heç bir düşüncəyə aidiyyəti yoxdur və çox pis bir tendensiyadır. ”Oxumuram, mənə lazım deyil”, kimi düşüncə sahibləri də, əslində bu cəmiyyətin yüksəlişinə, inkişafına heç bir önəm verməyən insanlardır.

Bizim, yəni yaşlı nəslin bir ”baba”sı var idi, adına bütün dünyada Lenin deyirdilər, əsl adı isə Vladimir İliç Ulyanov idi. Bax, bu Ulyanov deyib: ”Oxumaq, oxumaq, yenə də oxumaq!”. Amma bunu heç də özündən kəşv etməyib. İnsafən, onu da qeyd etmək lazımdır ki, atası Gimnaziya direktoru olan Valodya Ulyanov çox oxumuş və bilikli adam olub. Belə olmasaydı, 300 il Rusiya imperiyasına hökmüranlıq edən Ramanovlar sülaləsini süquta yetirə bilməzdi. Lenin həmçinin İslam tarixini mükəmməl bildiyindən, Məhəmməd peğəmbərin ”beşikdən qəbrə qədər öyrənin”) tövsiyyəsini ”Oxumaq, oxumaq, yenə də oxumaq!” şüraı kimi təqdim etmişdi. Onun qurduğu sovetlər ölkəsində, həqiqətəndə oxumamaq mümkün deyildi. Dövlət insanların oxuması, savadlanması üçün lazım olan bütün işləri görürdü. Sovetlər İttifaqı dünyada yeganə dövlət idi ki, bu dövlətdə ən azı orta təhsili olmayan bir nəfər belə yox idi.

Müstəqillik əldə etdikdən sonra isə ölkəmizdə insanlar oxumaqdan uzaq qaçmağa başladılar.

Bunun əsas səbəblərindən biri müstəqilliyin ilk illərində ölkəmizdə yaranmış xaotik vəziyyət idi. Bu illərdə məcburi orta təhsil tələbi ortadan qalxdı. Yəni müstəqil olduqsa, oxumasaq da olar.

Daha bir müddət sonra Azərbaycanda ”kiril” əlifbası ləğv olundu, latın qrafikalı əlifba yenidən həyatımızı qayıtdı. Qayıtdı ona görə deyirəm ki, 1933-39-cu illərdə ölkəmizdə ərəb qrafikası ilə yazıb-oxumaq qadağan olundu (onu da diqqətinizə çatdırım ki, 1929-cu ilə qədər Azərbaycaq əhalisi ”əski əlifba” adlanan ərəb əlifbasıyla yazıb -oxuyub) və latın qrafikasına keçdik. Sonradan isə hansısa səbəbdən (bəziləri iddia edir ki sovet hökuməti bizi buna vadar edib, amma bu inandırıcı deyil çünki, nə gürcülər, nə ermənilər, nə də Pribaltika respublikaları belə bir addım atmadılar, bu məcburi olsaydı, sovet dönəmində onların bu prosesdən kənarda qalamaları mümkün olmazdı) latın əlifbasından kiril əlifbasına keçid etdik.

Bu fikiri bəlkə də məndən qabaq kimlərsə deyib, buna görə də onların ruhuna hörmətlə qeyd edirəm ki, hər hansı bir xalqı, dövləti inkişafdan, mədəni tərəqqidən saxlamaq, tarixini saxtalaşdırmaq istəyirsənsə, vaxtaşırı onun əlifbasını dəyiş ki, yeni gələn nəsl tarixini və keçmişini öyrənə biməsin və unutsun. Azərbaycanda isə son 60-65 il ərzində ən azından 4 dəfə əlifba dəyişib.

Yəni babam ərəb əlifbası ilə, atam latın, mən kiril, övladlarım isə yenidən latın əlifbası ilə oxuyub-yazmaq məcburiyyətində qalmışıq. Loru dildə desək, babamın yazdığını atam, atmın yazdığını mən, mənim yazdıqlarımı isə övladlarım oxumaqdan məhrum ediliblər. Xalqın bundan böyük faciəsi ola bilərmi?

Müstəqillik əldə etdikdən sonra latın əlifbasına keçid, həm də yaşlı əhalinin böyük bir qismini qəzet, kitab oxumaqdan məhrum etdi. Həmin insanlar indi də öz aralarında paylaşaraq, kiril əlifbası ilə olan kitabları oxumaqda davam edirlər. Bu baxımdan, qəzetlər daha ağır duruma düşdülər. İlk zamanlar latın əlifbası ilə nəşr olunan qəzetlər demək olar ki, oxucu kütləsini tamamilə itirdi. Bu ərəfədə kompüter, internet və s. kimi yeni texnologiyaların həyatımıza daxil olmasıyla, insanların qəzetlərə olan tələbatı artsa da, oxuyanların sayı kəskin azaldı. Məsələn, o dövrdə kiril əlifbası ilə 150-200 min tirajla nəşr olunan qəzetlərin tirajı 10-15 dəfə azaldı. 50-60 min tirajla nəşr olunan qəzetlər isə az qala sıradan çıxdılar. Bu azalma sonrakı illərdə də davam etdi. Bu gün Azərbaycanda ən yüksək tirajla nəşr olunan qəzetlərin tirajı 5-7 min nüsxədən azdır ki, bu da 10 milyonluq bir ölkə üçün həddən ziyadə kiçik bir rəqəmdir. Nəzərə alsaq ki, bu qəzetlərin də tirajının böyük hissəsi məcburi abunədən formalaşır, qalan hissəsi isə ”qayıdış”(maklatura) təşkil edir, bu, onu deməyə əsas verir ki, köşkdən qəzet alanların sayı barmaqla sayılacaq qədər azalıb. Bu səbəbdən də, qəzet-jurnal, kitab satışı üçün nəzərdə tutulan köşklər də, qəzet satışında maraqlı olmadılar və kiçik marketlər kimi fəaliyyət göstərməyə başladılar.

Qəzetlərin və kitabların oxucu itirməsinin səbəblərindən biri də, oxucunun aldığı qəzet və kitablarda axtardığını (oxumaq istədiyini) tapa bilməməsidir. Məsələn, ölkədə insanların sosial durumu çox ağır olduğu halda, qəzetlərin böyük əksəriyyəti buna münasibət açıqlamır. Bu problemi müzakirəyə çıxarmır, yaxud çıxarmaq gücündə deyil. Kitablarda isə oxucu yazıçının təsvir etdiyi qəhramanı reallıqda görə bilmir. Müasir oxucular hesab edir ki, gənc yazarlar öz qəhramanlarını həyatın reallıqları ilə uzlaşdıra bilmirlər, yəni yazdıqlarının hamısı bir nəfərin təxəyyülünün məhsulu olan utopiyadan başqa bir şey deyil.

Bura qədər yazılanların təkzibi kimi görünsə də deməliyəm ki, bu gün kitab, qəzet oxumaq istəyən insanlar var. Sadəcə, oxuculara onları qane edə biləcək məhsul təqdim etmək lazımdır. Azərbaycanın yazılı mediası isə bunu bacarmır, çünki müstəqil deyil. Məmurların, yaxud hökumətin nəzarəti altında fəaliyyət göstərən ”müstəqil” medianı isə ”qazdan ayıq” oxucu qəbul etmir.

Başqa bir səbəb, qəzet və kitabların çox baha olması. Qəzet kimlərinsə hesabına nəşr olunduğundan, qəzet istehsalçısı onun satışında maraqlı olmur və qəzetə istənilən satış qiymətini qoyur. Məsələn, 16 səhifəlik A3 farmatında nəşr olunan bir qəzet 15, başqa bir qəzet isə 40-60 qəpiyə satışı çıxarılır. Buna səbəb mediaya kommersiya strukturu kimi deyil, başqa maraqlardan yanaşmadır. Kitab nəşrində isə vəziyyət daha ağırdır. Yazıçı 500-1000 tirajla kitab nəşr etdirir, sonra da özü kitabına müştəri axtarır ki, mənim kitabımı alın. Yaxud da imkanlı şəxslərə ”paylayır” ki, kitabın xərcini ödəyə bilsin.

Burada bir məqamı diqqətinizə çatdırmaq istəyirəm. Təxminən 1970-ci illərin sonu 1980-cı illərin əvvəlində görkəmli alim və yazıçı Əzizə Cəfərzadənin ”Pəncərədə işıq” əsəri 250 min tirajla kitab şəklində nəşr olunmuşdu və 3 gün sonra onu satışda tapmaq mümkün deyildi.

İnsanların kitab-qəzet oxumamalarının bir səbəbi də, bu məhsulların satışının bərbad vəziyyətdə olmasıdır. Hamı çalışır ki, qəzetləri, kitabları Bakıda satsın. Bölgələrdə isə oxucu oxumağa qəzet-kitab tapmır. Mən bu sahədə çalışan bir çox insanlar tanıyıram ki, onlara imkan verilsə, normal qəzetlər, kitablar nəşr olunsa, onların ölkəmizin hər yerində satışını təşkil edə bilərlər. Hazırda isə qəzet yazarları da, yazıçılar da kimlərinsə dəstəyinə və yardımına möhtacdırlar. Kimlərdənsə dəstək və yardım alan yazar və yazıçılar isə istədikləri əsəri yarada bilməzlər, çünki başları üstündə olan ”yaqdım-dəstək” adlanan ”demokl qılıncı” buna imkan verməz.

Proses bu formada davam edərsə, sabah bu yardımlar və dəstək kəsiləcək, Azərbaycanda yazılı media və kitab nəşri sözün bütün mənalarında tənəzzülə uğrayacaq.

Sonda bir şeyi də qeyd edim ki, sosial media, heç zaman qəzet oxucusunu özünə cəlb edə bilməz. Sosial media, sadəcə olaraq xəbər daşıyıcısıdır. Məsələn, ”İmişlidə 15 yaşlı yeniyetmə intihar edib, intiharın səbəbləri araşdırılır”. Qəzetlər isə (söhbət müstəqil mediadan gedir), bu məsələni tam olaraq araşdırır, intihar edənin şəxsiyyəti, intiharın səbəbləri və bu kimi halların baş verməməsi üçün nələri etmək lazımdır və bunu ictimaiyyətin müzakirəsinə çıxarır ki, belə halların qarşısı alınsın. Mövzu həm də aidiyyəti qurumlar tərəfindən araşdırılsın. Mətbu sözünün gücü də, məhz bundadır ki, dövlət mətbuatda qaldırılan məsələlərə xüsusi diqqət yetirir. Belə olduğu təqdirdə oxucularda da, mətbu sözünə inam və etibar artacaq. Mətbuat həm də kütləyə təsir edən bir vasitəyə çevriləcək. Hazırda isə kütləvi informasiya vasitələri anlayışı özünün mahiyyətini tam olaraq itirib

**Hələlik bu qədər. Bu mövzu mənim üçün xüsusi önəm daşıdığından, gələn yazılarımın birində Bakıda, Zaqatala-Balakən və Yasamal rayonunda aparlığım monitorinqin nəticələri ilə sizi də tanış etməyə çalışacağam. ”Paralel”i izləyin.**

***Yusif Seyid***

# Çörəyi kim bahalaşdırdı?

## Hökumət seçdiyi kursu yeni iqtisadi siyasətlə davam etdirməlidir

Yanvar ayının 4-dən, neni ilin ilk iş günündən bahalaşan un və un məmulatlarının yenidən ucuzlaşacağı ehtimalı bu gün də Azərbaycan ictimai rəyində hakim mövqe tutur. Lakin proseslərin inkişafı onu göstərir ki, bu baş verməyəcək. Bu mühakimənin əsaslandırılması üçün ilk növbədə o suala cavab tapmaq lazımdır ki, çörəyi kim bahalaşdırdı. Belə ki, yanvar ayının 4-də, günün ikinci yarısında Azərbaycan vətəndaşlarına qiymət artımı ilə bağlı məlumat verən un idxalçıları və çörək istehsalçılarının kimliyi dəqiq bəlli deyil. unistehsali@gmail.com poçt ünvanından başqa heç bir hüquqi subyekti və birliyi olmayan "təşkilat"ın kimliyi də, heç kimə bəlli deyil. Amma adlarını gizli saxlayan bu sahibkarları hökümət çox yaxşı tanıyır. Çünki hökumət onilliklərdir ki, ölkədə unun qiymətinin sabit saxlanması üçün həmin sahibkarlara yüz milyonlarla subsidiya, büdcədən əvəzi ödənilməyən vəsaitlər verir. Lakin bu vəsaitlərin hansı prinsiplər əsasında, kimlərə və nə qədər verildiyi barədə heç bir məlumat yoxdur. Bununla yanaşı, adının çəkilməsini istəməyən, dövlətdən subsidiya alan sahibkarlardan biri ilə söhbət zamanı bəlli oldu ki, geridə qoyduğumuz onilliklər ərzində hökumətin un istehsalçılarına verilən subsidyalardan da "otkat" (geri qaytarma) alınıb. Yəni sahibkarlara unun sabit qiymətinin saxlanması



üçün ayrılan subsidiyaların bir hissəsi də korrupsiyanın yeminə çevrilib. Sahibkar deyir ki, əvvəllər ödənilən subsidiyaların "otkat" kimi geri qaytarılan hissəsi çox aşağı məbləğlərlə ifadə edilirdi, amma sonradan illər keçdikcə geri qaytarılan məbləğ artırıldı. Son illər vəziyyət o yerə gəlib ki, subsidiyanın sahibkara qalan hissəsi ilə unun qiymətlərinin sabit saxlanması mümkün olmayıb. Ona görə də, böyük çörək istehsalçıları ilə un istehsalçıları arasında razılaşmaya əsasən müxtəlif vaxtlarda çörəyin qiymətini sabit saxlayaraq, çəkisini bir qədər azaldaraq unun qiymətini tənzimləməyə çalışırlar. Unun pərakəndə satış qiymətlərində isə sahibkarlar sabitliyi qoruyublar.

Əslində, un və çörək istehsalçıları ölkədə bir mərkəzdən idarə edilən inhisara malikdir. Sadəcə olaraq, onlar müxtəlif şirkətlər şəklində təşkilatlanıb ki, müstəqil şirkətlər fonu yaratsınlar. Əslində isə bu şirkətlər heç də bir-biri ilə rəqabət aparmır, birgə hərəkət edərək hökumətdən daha çox subsidiya qoparmaq siyasətini yeridir. Hökumət son zamanlar subsidiyaların şişməsindən narahat olaraq siyasətini dəyişərək, yeni il üçün un və çörək istehsalçılarına subsidiya ayırmaqdan imtina etdi. Nəticədə bir kiloqramı 51 qəpiyə başa gəlib, 56 qəpiyə satılan unun qiyməti 72 qəpiyə qalxdı. Hesab edirik ki, hökumət un və çörək istehsalçılarına subsidya ayırmaqdan imtina etmək qərarında israrlı olsa, qiymətlər yaxın dövrlərdə nəinki ucuzlaşacaq, əksinə, bir qədər də bahalaşa bilər.

Hökumətin bu addımı bazar iqtisadiyyatı baxımından təqdirəlayiq hesab edilməklə yanaşı, bundan sonra ardıcıl addımların atılması vacibdir. Birincisi, subsidiyaların kəsilməsi ilə yanaşı, un və çörək istehsalçılarına tam sərbəstlik verilməsi gərəkir. Bunun ardınca hökumət Taxıl Fondundakı 750 min tonluq *(illik tələbatın yarısından çox)* ərzaq buğdası ehtiyatından istifadə edərək bazarda qiymətləri növbəti məhsul ilinə qədər sabit saxlamağa çalışmalıdır. Növbəti məhsul ilində isə indiyə qədər ün və çörək istehsalçılarına verilən subsidyanı şəffaf şəkildə Taxıl Fonduna keyfiyyətli ərzaq buğdası təhvil verən fermerə ödəməlidir. Fermerlərin istehsal həcmləri ilə bazarın tələbatı stabilləşənə qədər bazarı tənzimləmək üçün hökumət özü də xaricdən buğda idxal edə bilər. Ölkədə ərzaq buğdası istehsalı yerli bazar tələbatının əsas hissəsini təmin edəcək səviyyəyə çatdıqdan sonra isə artıq hökumətin ərzaq buğdası idxalına ehtiyac qalmayacaq. Sünki idxal yerli tələbatın 15-20 faizinə qədər düşəcək, bu da kifayət qədər aşağı asılılıqdır.

Bunlarla yanaşı hökumət bütün fermerlərin, o cümlədən ərzaq buğdası istehsalçılarının xərclərini azaltmaq üçün ilk növbədə dizel yanacağının qiymətini ən azı yarıbayarı aşağı salmalıdır. Çünki hazırda mövcud olan dizel yanacağı qiymətləri ilə rentabelli fermer təsərrüfatlarının qurulması mümkün deyil. Fermerlərə ucuz dizel yanacaqı satmaq siyasətinə gəldikdə isə təcürbə göstərir ki, mövcud strukturlarla belə bir layihənin reallaşdırlması çox çətin məsələdir. Ona görə də ən sağlam addım dizel yanacağının ölkə üzürə ucuzlaşdırılmasıdır. İran, Türkmənistan və Qazaxıstan dizel yanacağını bizdən dəfələrlə ucuz satır, heç bir problemləri də yoxdur. Dizel yanacağının ucuz olması faktiki fermerin manevr imkanlarını artırır.



Akif Nəsirli

# İlham İsmayıl: «İstənilən icra başçısını bu saat həbs etmək olar»

**Rüşvət və korrupsiyaya görə, indiyə kimi ölkədə 7 icra başçısı həbs olunub. Vəzifə səlahiyyətlərini yerinə yetirərkən qanunsuzluğa yol verdiyi üçün azadlıqdan məhrum edilənlərin arasında nazir müavinləri, bələdiyyə sədrləri və digər yüksək rütbəli məmurlar da var.**

Maraqlıdır ki, cəmiyyətdə rəğbətlə qarşılanan bu proses qeyri-müəyyən səbəblərə görə dayanıb. Silsilə həbslərdən sonra gələn durğunluq, artıq uzun müddətdir ki, davam edir. Buna səbəb nədir? İcra başçılarının, digər yüksək rütbəli məmurların həbsində niyə fasilə yarandı? Yoxsa? *"Gözü çıxan qardaş göz qabağındadır"* məsəli bu kəslər üçün, artıq böyük əhəmiyyət kəsb edir?

Yenisabah.az-ın suallarını cavablandıran təhlükəsizlik üzrə ekspert, ehtiyatda olan polkovnik-leytenant İlham İsmayıl deyir ki, icra başçılarını həbs etmək bir proses deyil, deyək ki, mütləq bu proses davam etməlidir və onlar tutulmalıdır:



*"İstənilən icra başçısını bu saat həbs etmək olar, amma bu mərhələnin dayandırılması bir proses deyildi. Bu, bir görüntü idi və mən hətta deyərdim ki, imitasiya idi. Yəni ki, tutuldular və bu cəmiyyətə bir növ su səpdi ki, guya məmur özbaşınalığının və korrupsiyanın qarşısı alınır. Gördüyünüz kimi, onlar camaatın ən çox narazılıq etdikləri icra başçıları idi. Onlar bu addımları atdılar və bu o demək deyildi ki, bu proses sona qədər 66 rayonun hamısına şamil olunmalıdır".*

İ.İsmayıl əlavə edib: *"Mən bunu korrupsiyaya qaşrı mübarizə kimi qiymətləndirmirdim, hətta islahat kimi də dəyərləndirmirəm. Bu, sadəcə İkinci Qarabağ müharibəsindən əvvəl ümumi narazılıqlara su səpmək üçün atılan addımlar idi və bundan sonra bu addımlar korrupsiyaya qarşı mübarizədən çox fərdi xarakter daşıyacaq. Yəni icra başçısı öz fəaliyyəti ilə narazılıq yaradırsa və yaxud onun hakimiyyəti qane etməyən hansısa hərəkəti varsa, həbs olunacaq. Amma yenə deyirəm, bu bir proses deyil ki, deyək bu dayandırılıbdır. Məmurlar yenə korrupsiya ilə məşğul olurlar".*

*"Bizdə idarətetmə sistemi elədir ki, korrupsiya, bu idarəetmə sisteminin tərkib hissəsi olubdur. Ttulmağa qalsa, burada hamı tutula bilər. İstənilən şəxs, o şəxsin ki, maliyyə imkanlarına, büdcəyə əli çatır, onlar həbs edilə bilər və əksəriyyətində biz bunu görmüşük. Hətta bizim üçün müqəddəs olan Qarabağ torpaqlarında, Şərqi Zəngəzurda tikilən İkinci Ağalı ağıllı kəndinin özündə də indi yeyinti prosesi gedirsə, ayırılan puldan mənimsəmələr olursa, fəhlələrə pul zamanında çatmırsa, şikayətlər göyə qalxırsa, bu, o deməkdir ki, yerdə qalanlarda bu, ümumiyyətlə, baş alıb gedir. Əgər istəyirlərsə, bu məsələnin sözün həqiqi mənasında islahata və həqiqi korrupsiyaya qarşı mübarizəyə çevirsinlər, onda bunu birmənalı şəkildə elə tətbiq etməlidirlər ki, başqalarına da görk olsun. Amma indi məsələ başqalarına görk olmur. Olmadığına görə də, bu imitasiya xarakteri daşıyır"*, - deyə ekspert fikrini yekunlaşdırıb.

Tanınmış hüquqşünas, vəkil Aslan İsmayılov isə məsələyə özünəməxsus yanaşıb.

*"Mən həbslər başlayanda demişdim ki, əgər hamısını həbs etsəniz, onda gərək Azərbaycanın sərhədinə bir dənə yekə dəmir divar hörələr və həbsxana elan edələr. Azərbaycanda hamı rüşvətin içindədir bu saat. Ona görə də, hamını həbs etməklə ölkədə əlavə gərginlik yaratmaq istəmirlər. Fasilələr bununla bağlıdır.*

*Bunları həbs etdilər ki, başqalarına dərs olsun, amma görünür dərs olmayıb. Hazırda vəzifədə olan və rüşvət alan məmurlar var və mən deyərdim ki, hətta həddən artıq çoxdurlar".*

# MƏĞLUB "DEMOKRATIN" FACİƏSİ

## Paşinyan Qazaxıstan hadisələrində özünü necə "batırdı?"

**Qazaxıstanda silah gücünə yatırılan etirazlar Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) sədrlik dönəminə təsadüf etdi. Prezident Kasım-Jomart Tokayev yanvarın 5-də bu təşkilatdan hərbi yardım istəmişdi. Baş nazir Nikol Paşinyan da üzv dövlətlərin başçıları ilə qısa məşvərətdən sonra, KTMT Qazaxıstana sülhməramlı qüvvələrin göndərilməsi barədə qərar vermişdi. 3750 nəfərlik hərbi kontingentin təxminən 3 min nəfəri Rusiya hava-desant qüvvələrinin hərbçiləri, cəmi 70 nəfəri isə Ermənistandan göndərilən kömək idi.**



Könüllü özünümüdafiə dəstələrinə bənzəyən erməni sülhməramlıları elə İrəvan hava limanından tənqid, gülüş obyektinə çevrilmişdi. Bir-birindən fərqli geyim, hərbçidən daha çox başqa peşə sahiblərinə bənzəyən əsgərləri təkcə bu çatışmazlıqlar qınağa tuş gətirməmişdi. Erməni fəallarından birinin sosial şəbəkələrdə trendə çevrilən *"bunlar gedib Qazaxıstanda da əsir düşməsələr yaxşıdır..."* statusu 44 günlük müharibədən sonra darmadağın olmuş ordunun cəmiyyətdəki imicindən xəbər verirdi. Həm də "demokrat", Baydenin demokratiya sammitinin fəxri qonağı olan Paşinyanın bu addımı qəzəb və ironiya doğurmuşdu. Qazaxıstanda baş verənlərin mahiyyəti məlumdur, elə dünən parlamentdəki çıxışında Tokayev də etiraf etdi ki, ölkədə yarıtmaz idarəçilik, üst-üstə qalaqlanmış problemlər əhalini təngə gətirib. O, fakt təqdim etmədən əvvəlcə xarici terrorçulardan, onların "misli görünməmiş" hücumlarından bəhs etsə də, indi valı dəyişib, günahı Nazarbayev klanının üstünə atmağa çalışır. İndi Rusiya və Belarus prezidentlərindən başqa Qazaxıstan olaylarını "rəngli inqilab", "terror hücumu" adlandıran yoxdur. Bəllidir ki, Qərblə gərgin qarşıdurma içərisində olan Putin-Lukaşenko cütlüyü niyə belə "rəngli" mövqe sərgiləyir...

Qırğızıstan ilk gündən fərqli mövqe tutdu, parlament Qazaxıstana ordu göndərmək istəmədi. Bir gün sonra qərar qəbul edilsə də, bu KTMT üzü daha çox Qazaxıstana iki nota təqdim etməsi ilə yadda qaldı. Bu notalarda terrorçu kimi həbs edilən qırğız musiqiçinin dərhal azad edilməsi tələb edilirdi və Tokayev tərəfindən yerinə yetirildi.

Bəs Paşinyanın mövqeyi nədir? İnqilabaçı lider Qazaxıstandakı hadisələri terror hücumu, xalq ayaqlanması, yoxsa Rusiya xüsusi xidmət orqanlarının ustalıqla təşkil etdiyi və Nazarbayev klanının çöküşü üçün təşkil olunmuş təxribat sayır? Ermənistanda bu suallarıbir neçə gündür verirlər, Paşinyan hökuməti isə İrəvanın KTMT öhdəliyini xatırlatmaqla kifayətlənir, amma onun yaxasını belə asanlıqla qurtarması inandırıcı deyil. Xüsusən, KTMT liderlərinin son toplantısında Putinin səsləndirdiyi fikirlər Paşinyanı divara dirədi. Kreml sahibi *"biz öz ərazilərimizdə rəngli inqlibalara yol verməyəcəyik"* dedi. O, "ərazi" deyərkən KTMT ölkələrini nəzərdə tuturdu və bura 2018-ci ildə inqilab yolu ilə hakimiyyət dəyişikliyi baş vermiş Ermənistan da daxildir. Baş nazir məhz həmin inqilab sayəsində Rusiyapərəst liderləri devirərək iqtidara gəlib. Bu paradoks bəlkə də Paşinyanın KTMT klubuna nə qədər yad olduğunu göstərərdi, amma o son davranışları ilə mahiyyətcə o qədər də fərqli olmadığını nümayiş etdirdi. Yəni Putinin qəzəbinə gəlməmək üçün çox şeyə hazırdır, hətta demokrat imcinin yerlə- bir olmasına da.

Tokayev vəd edib ki, 10 gün ərzində KTMT hərbçiləri Qazaxıstandan çıxacaq. Bunun prezidentin dediyi şəkildə baş verəcəyi o qədər də inandırıcı deyil. Amma sülhməramlılar Qazaxıstanı tərk etsələr belə, Putin artıq bir istəyinə nail oldu. O, lazım olanda silahlı qüvvələri öz çevrəsindəki avtoritar liderləri qorumaq üçün göndərməyə hazırdı. Bu, həm də xalqı ilə düşmən olan prezidentlər üçün təhlükəsizlik qarantiyası sayıla bilər.

**Maraqlıdır, özünü hər fürsətdə Qərbin demokrat müttəfiqi kimi təqdim etməyə cəhd edən Paşinyan bu haqda nə düşünür? Rəngli inqilabları görməyə gözü olmayan Putinlə bir masada oturmağın nə qədər təhlükəli olduğunu, bir gün həmin "sülhməramlıların" İrəvanda peydə olmayacağına heç bir qarantiyanın mövcud olmadığını bilirmi?**

***E.Rüstəmli***

# "Müdafiə Nazirliyinin cavabı yumşaqdır, sərt olmalıdır"

**Ötən gün ermənilərin Kəlbəcər rayonunun Yellicə kəndi istiqamətində törətdiyi təxribat nəticəsində Azərbaycan Ordusunun bir hərbçisi, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ayaz Nəzərov şəhid olub.**

Ermənistan MN-nin yaydığı məlumatda isə bildirilir ki, qarşı tərəf törətdiyi təxribat nəticəsində 3 hərbçisini itirib.

Soçi və Brüssel danışıqlarında əldə olunan razılaşmalardan sonra Ermənistanın yenidən bu səpkili qeyri-adekvat hərəkətləri heç də birmənalı qarşılanmır.

Düşmən ölkənin Azərbaycanın uzatdığı sülh əlini sıxmaqdan imtina etməsinə səbəb nədir?

### Kəlbəcərdə baş verən təxribatın arxasında nə dayanır?

Olay barədə Yenisabah.az-a danışan ehtiyatda olan mayor Ədalət Verdiyev bildirib ki, Ermənistan bu tip təxribatları zaman-zaman törədir və itkilərinin sayını gizlədir: *"Eyni istiqamətdə, yəni Kəlbəcərin rayonunun Yellicə kəndi ilə Basarkeçər (Vardenis) rayonunun Yuxarı Şorca, Böyük Qaraqoyunlu və Zərkənd kəndləri istiqamətindəki dövlət sərhədində daim təxribatlar törədilir. Əvvəllər bu təxribatlar, adətən, Ermənistanın Baş naziri Nikol Paşinyanın xarici dövlət rəhbərlərindən dəstək alması fonunda baş verirdi. İndi bu hadisələrin səbəbi Ermənistanın 100 əsgərini Qazaxıstana göndərməsindən ruhlanmasıdır. Düşünürlər ki, KTMT onların köməyinə gələcək".*

Mütəxəssis adekvat tədbirlərin "yumşaq"lığından gileylənib: *"Biz, adekvat tədbirlər dedikdə, bu adekvat tədbirlərin dozasını bir az artırmalıyıq.*



*Əgər tədbirlərimiz adekvat olsaydı, gələn dəfə ermənilər buna cəhd etməzdi. Əgər edirsə, deməli, bu məsələni bir az da sərtləşdirmək mümkündür. İstənilən halda əsgərimizə atəş açan mövqe darmadağın edilməli, birmənalı olaraq həmin ərazi nəzarətimizə götürülməlidir.*

*Əgər Ermənistan sərhədimizi tanımırsa, 30 ildir o sərhədi 150 km pozubsa, niyə biz "Ermənistan sərhədi" məvhumunu işlətməliyik? Sərhədin təyin olunmasını istəyən 14 ayda delimitasiya və demarkasiya prosesinə başlayardı, lakin hələ də prosesi uzadırlar".*

Sonda isə Ə.Verdiyev tərxibatların qarşısının alınması barəsində özünəməxsus şərh bildirib: *"Hər dəfə atəşkəs pozulanda o mövqeləri azad etməliyik, çünki necə olursa-olsun oralar tarixi Azərbaycan torpaqlarıdır. Buna görə də, kimsə Azərbaycanı qınayası deyil. Əlimizdə 1 əsrlik müqavilə və s. faktlar var.*

*Bu hallarda optik kameralar və PUA vasitələriylə görüntüləri əldə etməliyik, eləcə də ermənilərin təxribat törətməsini sübut edən vizual faktlar əlimizə keçəndən bir dəqiqə sonra onları eni-nə-uzuna "şumlamalıyıq""*, - deyə ekspert yekunlaşdırıb.

***Rafi MÜSLÜMOV***



## "Rusiya Ukraynanın NATO-ya üzvlüyü məsələsində söz sahibi deyil" - XİN başçısı

**«Avro-Atlantik regionda təhlükəsizlik təminatı ilə bağlı müzakirələr Rusiyanın Ukrayna sərhədlərində de-eskalasiyaya getməsi, Donbas və Krımdan geri çəkilməsi ilə başlamalıdır».**

Bu barədə Ukraynanın xarici işlər naziri Dmitri Kuleba Cenevrədə ABŞ və Rusiya nümayəndə heyətləri arasında keçirilən görüşə münasibət bildirərkən deyib.

Xarici işlər naziri Cenevrədəki görüşü və bu gün (dünən-red) keçiriləcək NATO-Rusiya Şurasının iclasını Avropada vacib diplomatik hadisə adlandırıb.

Onun sözlərinə görə, danışıqlar davam etsə də, ilkin nəticələr çıxarmaq mümkündür.

*"Rusiya məqsədli şəkildə qəbuledilməz tələblər irəli sürərək öz istədiklərini maksimuma çatdırmaq üçün "təhlükəsizlik zəmanəti" adlanan danışıqlara başlayıb. 100 mindən çox qüvvəsini Ukrayna sərhədlərində topladığı, Krımı girov saxladığı və Donbasda döyüşdüyü bir vaxtda Rusiyanın təhlükəsizlik zəmanəti tələb etməsi utanmazlıqdır. Ukraynanın NATO-ya üzvlüyü məsələsində Rusiya söz sahibi deyil. Qərb Rusiyaya alyansın şərqə doğru genişlənməməsinə "hüquqi təminat" verməyə razı olmayacaq, çünki bu, strateji məğlubiyyət olardı"*, - D. Kuleba bildirib.

XİN rəhbəri qeyd edib ki, ölkəsinin iştirakı olmadan Ukrayna ilə bağlı heç bir qərar qəbul edilməməlidir. O əlavə edib ki, diplomatik prinsipini möhkəmləndirmək üçün Ukrayna öz tərəfdaşları ilə intensiv işləyir və Cenevrə görüşündə Rusiya tərəfi artıq bu siqnalı alıb: *"ABŞ Ukraynanın iştirakı olmadan Ukrayna, Avropanın iştirakı olmadan Avropa, NATO-nun iştirakı olmadan NATO ilə bağlı heç bir qərarı təsdiq etməyəcək. Qərbin həmrəyliyi Rusiyanın amerikalılarla razılaşmaq ümidlərini məhv edir. Mən səylərimizin öz nəticəsini verdiyini görməyə şadam: tərəfdaşlarımız arasında Ukraynanın təhlükə altında olduğu bir vaxtda Avro-Atlantik təhlükəsizliyin mümkünsüzlüyünü anlayanların sayı artır".*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**

# Qazaxıstan-Azərbaycan münasibətləri qardaşlıq və döstluq şəraitində inkişaf edir

## Qazaxıstada yaşayan azərbaycanlılar ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edir

Bu gün bütün dünyanın xəbər portalları, sosial şəbəkə platformaları, televizya və radio kanalları Qazaxıstandan həyəcanlı xəbərlər verməkdədir. Sözügedən sırada türk xalqlarının mediası prosesləri daha həyacanla izləməkdə, vətəndaş cəmiyyəti nümayəndələri isə qızğın müzakirələrlə bu ölkədə yaşananları gündəmdə saxlamaqdadır. Türk dünyasının həyacanını başa düşmək olar - eyni soydan olan millətin, türk soyunun qıpçaq boyundan olan qazax xalqı hazırda çox ağrılı bir proses keçirir. Səbəb nə olur-olsun, bu gün yüzlərlə qazax gənci qətlə yetirilib. Bizim üçün fərqi yoxdur, o polisdir, xüsusi təyinatlıdır və ya etiraz edən sadə vətəndaşdır. Ən faciəlisi isə odur ki, indi Qazaxıstanın böyük şəhərlərində, o cümlədən də Alma-atada KTMT qüvvələri adı altında rus, belarus və erməni əsgərləri etirazçı ovuna çıxıb. Bu qazax xalqı və bütün türk dünyası üçün aşaqılayıcı bir haldır. Çox təəssüflər olsun ki, qazax xalqının haqlı etirazına qarşı güllə ilə cavab verilir, ağrılısı da onun yadelli gülləsi olmasıdır...

Yeri gəlmişkən qeyd edək ki, Qazaxıstan ərazisinə və sərvətlərinə görə türk dünyasının ən böyük dövlətidir. Sözügedən ölkə bu göstəricilərə görə dünyada da çox nəzərə -çarpacaq mövqelərə malikdir. Ərazisinə görə dünyada doqquzuncu, sərvətlərinə görə isə yeddinci yeri tutur. Dünya əhalisinin bir faizinə belə sahiblənməyən Qazaxıstan bu qədər böyük ərazi və sərvətləri ilə həm də Orta Asiyanın açar ölkəsidir. Qazaxıstanın hər hansı bir bəlaya düçar olması, bütün Orta Asiyanı qarışdıra bilər. Qazaxıstan bölgənin bütün dövlətləri ilə - Türkmənistan, Özbəkistan, Qırğızıstan, Rusiya, Cin və Monqolıstanla quru sərhədlərinə malikdir. Belə coğrafi movqe, geniş ərazilər və bol sərvət, bu Asiya ölkəsini xüsusilə cəlbedici edir. Ölkənin əsas xarici investoru Rusiya iş adamları olsa da, Amerikanın, Qərbin və Türkiyənin də iş adamları Qazaxıstana sərmayə yatırıblar.

Son olaylara qədər Qərb, Amerika və Türkiyə Qazaxıstanla münasibətləri möhkəmləndirərək onu Rusiyanın təsiri altından çıxarmaq strategiyası həyata keçirirdi. Bu istiqamətdə həyata keçirilən və keçiriləcək layihələrin hamısı, məhz Azərbaycan üzərindən reallaşdırılması nəzərdə tutulurdu. Bir neçə il əvvəl Xəzərin statusunun müəyyənləşdirilməsi ilə bağlı qərar qəbul edildi. Bu qərar dünyanın super dövlətlərinin maraqları çərçivəsində Rusiyaya qəbul etdirildi desək yanılmarıq. Lakin Rusiya bu məsələdə müttəfiqi olan İranın şıltaqlığından istifadə etdi. Belə ki, Xəzərin statusu müəyyənləşdirilsə də, Xəzəryanı beş ölkədən (Rusiya, Qazaxıstan, İran, Azərbaycan və Türkmənistan) biri olan İran bu sənədi parlamentdə hələ də ratifikasiya etməyib. Bu imtina isə sənədin qüvvəyə minməsinin qarşısını alan yeganə amildir. Bununla da Qazaxıstan, Türkmənistan və Özbəkistan qazını Avropaya daşıyacaq, Xəzərin dibi ilə çəkilməsi nəzərdə tutulan qaz kəmərinin inşası üçün hüquqi zəmin yaradıla bilmir. Həmin kəmərin çəkilməsi Orta Asiya ölkələrinin birbaşa dünya bazarına çıxış əldə etməsinə və Rusiyadan asılılığının azalmasına şərait yaradacaqdı. Bu işdə Rusiya ikili oyun oynayaraq, özü sənədi ratifikasiya etdi, lakin İran bu ratifikasiyadan imtina etdi ki, bu da açıq şəkildə Moskvanın maraqlarına uyğun gəlir.



Bu məsələni xatırlatmaqda məqsəd ondan ibarətdir ki, Qazaxıstanın və digər Orta Asiya ölkələrinin müstəqilliyinin möhkəmlənməsi, Rusiyanın təsiri altından çıxaraq, Qərbə və demokratik dünyanın digər kəsiminə inteqrasiya etməsi, bütün cəhətləri ilə Azərbaycanın dövlət maraqlarına da uyğun gəlir. Məhz bu səbəbdən də, Azərbaycan bütün Orta Asiya ölkələri ilə münasibətlərin inkişaf etdirilməsində maraqlıdır. Qazaxıstanla münasibətlərə gəldikdə, bu istiqamətdə xeyli işlər görülüb, ölkələr arasında iqtisadi və mədəni əlaqələr gücləndirilir. Məsələn, Qazaxıstan maye qazının Xəzər üzərindən tranzit yolla Avropa ölkələrinə daşınmasında Azərbaycan xeyli güzəştlər edib, qardaş ölkəyə neft hasilatı sənayesinə dair maşın və mexanizmlərin sərfəli qiymətlərlə satılmasını təmin edir.

Azərbaycan Qazaxıstan münasibətlərinin çox qədim tarixi var. Belə ki, azərbaycanlılar və qazaxlar eyni kökə, mədəniyyətə, qədim tarixi münasibətlərə və ənənələrə malikdirlər. Bundan başqa bu xalqları dil və din eyniliyi də birləşdirir.

Azərbaycan və qazax xalqı rus çar imperiyası və sovetlər ittifaqı dönəmində eyni ölkənin ərazisi hesab edilib, vahid mərkəzdən idarə olunub. Sovet İttifaqına Stalin rəhbərlik etdiyi vaxt represiyalar nəticəsində minlərlə azərbaycanlı Qazaxıstana sürgün olunub.

Hazırda qeyri-rəsmi məlumatlara görə, Qazaxıstanda üç yüz minə qədər azərbaycanlı kompak şəkildə məskunlaşıb. Bu ölkədə yaşayan azərbaycanlılar elm, incəsənət, kənd təsərrüfatı, biznes və digər sahələrdə önəmli mövqelərə malikdirlər. Qazaxıstada yaşayan azərbaycanlılar ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edir, ölkənin inkişafına öz töhfələrini verirlər.

Hələ SSRİ-nin tərkibində müttəfiq respublikalar olduqları dövrdə bu iki dövlət arasında geniş iqtisadi və mədəni əlaqələr formalaşıb və inkişaf edıb. Sovetlər Birliyi dağıldıqdan, postsovet məkanında müstəqil dövlətlər yarandıqdan sonra bu münasibətlər daha da inkişaf etməyə, sıxlaşmağa başlayıb.

Ötən əsrin 90-ci illərindən etibarən Qazaxıstanda bir sıra Azərbaycan mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Böyük qazax mütəfəkkiri Oljas Süleymanov 1990-cı ilin 20 Yanvar hadisələrindən sonra SSRİ Ali Sovetinin sessiyasında, rus-erməni şovinizminə qarşı çıxış edərək, Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında böyük fədakarlıq göstərib.

Azərbaycanla Qazaxıstan arasında əlaqələr əsasən beynəlxalq təşkilatlar, xüsusilə də Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Müstəqil Dövlətlər Birliyi çərçivəsində mövcuddur və bugün də davam edir.

Ölkələrimiz arasında diplomatik əlaqələr 1992-ci ilin avqust ayının 30-da qurulmuşdur. Qazaxıstanın Azərbaycandakı səfirliyi 9 yanvar 1993-cü ildə Bakıda fəaliyyətə başlamışdır.

Azərbaycan Respublikasının 11 aprel 1997-ci il tarixli Qanunu ilə Azərbaycan Respublikasının Qazaxıstan Respublikasında Səfirliyi təsis edilsə də, fəaliyyətinə bundan 7 il sonra - 1 mart 2004-cü ildə başlayıb. Bundan başqa 30 aprel 2008-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Aktau şəhərində Azərbaycanın Baş Konsulluq təsis edilib və elə həmin ilin 6 sentyabr tarixindən fəaliyyətə başlayıb.

***Akif Nəsirli***

Yazı Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Azərbaycan jurnalistləri 2021-ci ildə: JuHİ ənənəvi illik hesabatını açıqlayıb

**Jurnalistlərin Həmkarlar İttifaqı (JuHİ) Azərbaycan jurnalistlərinin 2021-ci il üzrə sosial durumları və media məkanı ilə bağlı baş vermiş hadisələrə dair yekun hesabatını açıqlayıb**

Bakı, 10 yanvar 2022. Jurnalistlərin Həmkarlar İttifaqı (JuHİ) Azərbaycan jurnalistlərinin 2021-ci ildə sosial durumlarını və media məkanı ilə bağlı baş vermiş önəmli hadisləri əks etdirən hesabatını açıqlayıb. JuHİ sədri Müşfiq Ələsgərli bildirib ki, hesabat 60 KIV redaksiyasını əhatə edən jurnalistlər arasında keçirilən sorğu, həmçinin, 2021-ci il ərzində aparılan monitorinqin nəticələri əsasında hazırlanıb.

Sorğu iştirakçıları çalışdıqları redaksiyalarda aylıq gəlirlərinin miqdarı, əmək münasibətlərinin rəsmiləşdirilməsi, həmçinin, 2021-ci ildə diqqət çəkən media hadisələri barədə sualları cavablandırıblar. Sorğu və monitorinqin yekunu olaraq aşağıdakı nəticələr əldə edilib:

QEYD: təsviri verilən nəticələr yalnız KİV-lərdə jurnalistlərin durumunu əks etdirir, redaktor heyəti və digərlərinə aid deyil

Əmək münasibətlərinin rəsmiləşdirilməsi sahəsində durum

Azərbaycanda aparılan struktur islahatları KİV redaksiyalarında əmək münasibətlərinin rəsmiləşdirilməsi məsələsinə də müsbət təsir göstərib. 2021-ci ildə KİV redaksiyalarında işçilərlə əmək müqavilələrinin bağlanılması sahəsində uğurlu nəticələr əldə edilib. Həmçinin, Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin (MEDİA) media subyektlərinə dəstək layihələri müsabiqəsi kontekstində irəli sürdüyü şərtlər sırasında KİV redaksiyalarında əmək müqavilələrinin bağlanması tələbini də irəli sürməsi redaksiyalarda işçilərlə müqavilələrin bağlanılmasını stimullaşdırıb. Sorğuya cəlb edilənlərin 90 %-dən çoxu bildiriblər ki, çalışdıqları redaksiyalarda əməkdaşlarla əmək müqavilələri bağlanılır. Bununla yanaşı, əvvəlki illərdə bu müstəvidə müşahidə edilən bəzi problemlər də qalmaqdadır. Xüsusi olaraq 3 məqam diqqəti çəkir:

- KİV redaksiyalarında əmək müqavilələrinin yalnız bir qrup işçiyə tətbiq edilməsi. Sorğunun nəticələri göstərir ki, redaksiyalarda işçilərin 30-40% ilə müqavilələr bağlanılır, qalan işçilər müqaviləsiz, şifahi razılaşmalarla çalışdırılır. Bu yanaşma sorğu keçirilən redaksiyaların 25%-də müşahidə edilib.

- Fərdi əmək müqavilələrinin müddətli bağlanılması və ya fərdi əmək müqaviləsi əvəzinə “xidmət müqaviləsi”nin tətbiq edilməsi,

- Real əmək haqqının əmək rəsmi sənədlərdə göstərilənlərlə uyğunsuzluğu.

Qeyd edək ki, daimi çalışan jurnalistlərə “müddətli müqavilənin”nin tətbiq edilməsi və ya onlarla əmək müqaviləsi əvəzinə “xidmət müqaviləsi”nin bağlanılması, əmək haqqının uyğunsuz rəsmiləşdirilməsi əmək münasibətlərinə xitam verilmə, ixtisarlar və digər hallarında jurnalistlər üçün əlverişsiz durum yaradır.

Əmək haqqı, orta aylıq gəlirlər sahəsində durum

Bu kontekstdə 2021-ci ildə ötən illə müqayisədə ciddi dəyişiklik müşahidə edilməyib. Rəyi soruşulanlardan:

*· 54 faizi aylıq gəlirlərinin 700-1000 manat;*

*· 31 faizi aylıq gəlirlərinin 500-700 manat;*

*· 15 faizi aylıq gəlirlərinin 250-500 manat civarında olduğunu bildiriblər.*

Əmək haqqı sahəsində aşağı göstəricilər daha çox regional KİV-lərdə qeydə alınıb. Sorğu iştirakçıları qeyd ediblər ki, region KİV-ləri təkcə əmək haqqı, maliyyə-iqtisadi baxımdan deyil, digər çətinliklərlə də üzləşirlər. Regional KİV-lərlə bağlı xüsusi proqramın hazırlanması təklifləri səsləndirilib.

Media sahəsində 2021-ci ildə diqqət çəkən hadisə və tendensiyalar

*· Prezident İlham Əliyev “Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında” Fərman imzalayıb. Fərmana uyğun olaraq, 2021-ci ildə Azərbaycan media industriyasında struktur, kadr və qanunvericilik islahatları davam edtirilib.*

*· Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu ləğv edilib, “Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyi” publik hüquqi şəxs yaradılıb.*

*· “Media haqqında” yeni qanun layihəsi işlənib hazırlanıb. Layihə Milli Məclisdə üçüncü oxunuşda təsdiq edilib.*

*· Dövlət və hökumət təmsilçilərinin sosial media müstəvisində aktivliyi, auditoriya ilə interaktiv münasibətləri, KİV-lərlə təmasları intensiv olaraq davam edib. 2018-ci ildən etibarən müşahidə edilməyə başlayan bu tendensiya 2021-ci ildə də yüksələn xəttlə davam edib. Bu dönəmdə Prezident İlham Əliyevin həm milli, həm də transmilli KİV-lərlə canlı təmasları intensiv olub. Prezidentin köməkçisi Hikmət Hacıyevin, bir sıra nazirlərin, komitə və şirkət rəhbərlərinin KİV təmsilçiləri ilə vasitəsiz görüşləri xarakterik hal alıb.*

*· “Azərbaycan” nəşriyyatına yeni baş direktor təyin edilib. Müvafiq sərəncama əsasən, Ağabəy Əsgərov “Azərbaycan” nəşriyyatının baş direktoru vəzifəsindən azd edilib, Leyla Güləliyeva direktor vəzifəsinə təyin edilib.*

*· Milli Məclis “Kağız məhsullarının idxalının və satışının ƏDV-dən azad olunmasına dair” təkliflərin reallaşdırılması üçün Vergilər Məcəlləsinə dəyişikliklər edilməsi yönündə müzakirələrə başlayıb. Bu, çap media subyektlərinin durumuna müsbət təsir edən mühüm addımlardan biri kimi dəyərləndirilib.*

*· "Space" TV-nin rəhbəri Vaqif Mustafayev tutduğu vəzifədən istefa verib. Müşfiq Hətəmov "Space" TV-nin rəhbəri təyin edilib.*

*· Media sahəsində Azərbaycan-Türkiyə əlaqələrinin daha da gücləndirilməsi yönündə önəmli addımlar atılıb. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) mediaforumu çərçivəsində Türkiyə-Azərbaycan Ortaq Media Platformasının ilk iclası keçirilib. Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fahrettin Altun və Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin rəhbərliyi ilə keçirilən görüşdə iki ölkənin media və kommunikasiya sahələri üzrə rəsmi şəxslərindən ibarət nümayəndə heyətləri iştirak ediblər.*

Türk Şurasına üzv dövlətlərin KİV nümayəndələrinin Azərbaycanın işğaldan azad edilmiş bölgələrinə səfərləri təşkil edilib. Bu missiyada Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Macarıstan, Serbiya, Bosniya və Herseqovinadan olan 20-dən çox jurnalist təmsil olunub.

*· “Trend” İnformasiya Agentliyi və Türkiyənin “Albayrak Media Group”unun birgə yaratdığı “TURKİC.World” (Türk Dünyası) adlı ilk rəqəmsal layihənin təqdimatı olub.*

*· Milli media məkanında peşəkarlığın artırılması yönündə həyata keçirilən sistemli fəaliyyət də diqqət mərkəzində olub. MEDİA Agentliyi ADA Universiteti ilə birgə media peşəkarlığı müstəvisində çoxsaylı proqramlar hazırlayaraq, icra edib. Bu sırada “Mediada islahatlara doğru” mövzusunda keçirilən seminar, “Jurnalistlərin münaqişə zonasında davranışları: Təhlükəsizlik və mühafizə qaydaları” mövzusunda təlimlər və digər tədbirlər müsbət dəyərləndirilib.*

*· COVİD-19 pandemiyasının təsirləri 2021-ci ildə də özünü göstərib. Monitorinqin nəticələrinə görə, jurnalistlər arasında yoluxanların sayı 288 nəfərə yaxın olub (2020-ci ildə 117 nəfər olmuşdu ). Bununla da 2020 və 2021-ci illərdə yoluxanların ümumi sayı 405 nəfərə çatıb. COVİD-19-a yoluxma səbəbindən həyatını itirən jurnalistlərin sayı 2021-ci ildə 8 nəfər olub (2020-ci ildə də 8 nəfər olub). Bununla da 2020 və 2021-ci illərdə koronavirusdan həyatını itirən jurnalistlərin ümumi sayı 16 nəfərə çatıb.*

*· Tibbi Ərazi Birliklərinin İdarəetmə Birliyi (TƏBİB) Mətbuat Şurasının müraciətini nəzərə alaraq, jurnalistlər üçün növbədənkənar peyvəndləmə kampaniyasını həyata keçirib. Kampaniya çərçivəsində 800 nəfərdən çox jurnalistə növbədənkənar peyvəndləmə həyata keçirilib.*

*· Ermənistanın yaratdığı gərginlik fonunda azərbaycanlı jurnalistlərin ciddi insidentlərlə üzləşməsi halları davam edib. 2021-ci ildə bu səbəbdən Azərbaycanın 2 media işçisi- AzərTAc-ın əməkdaşı Məhərrəm İbrahimov və AzTV-nin operatoru Sirac Abışov -Kəlbəcər rayonu ərazisində minaya düşərək həyatlarını itiriblər. 22 iyul - Milli Mətbuat günündə Prezident İlham Əliyev hər iki şəhid jurnalistin ailələrinə mənzillər hədiyyə edib.*

*· KİV-dən sui-istifadə hallarına qarşı mübarizə tədbirləri intensivləşdirilib. 2021-ci ildə özünü jurnalist, KİV qurumu işçisi kimi tədim edərək sui-istifadə hallarına yol verən, şantaj, hədə yolu ilə vətəndaşlardan qanunsuz vəsait tələb edən şəxslər hüquq-mühafizə orqanları tərəfindən saxlanılaraq barələrində hüquqi ölçü götürülüb. 2021-ci ildə bu hallar üzrə barələrində hüquqi ölçü götürülən “KİV” və “jurnalistlərin” sayı 18 nəfər olub . Bu sırada “Bəyaz TV” adlı Youtube kanalının, “Cia.az” informasiya portalının, “Azadinfo.az” MMC-nin, “Xəbər kanalı” səhifəsinin, "Ltv -7" xəbər kanalının, Şəhid ailələrindən “çəkiliş aparmaq” adı ilə maddi vəsait alan “İnform Xəbər TV”nin (Azər Kazımov, Rübabə Vəliyeva), “www.sheffaf.az” xəbər portalının, “www.azinfo.tv”-nin və digərlərinin (ümumilikdə 18 KİV qurumu) adları xüsusilə diqqət çəkib.*

*· "Qərb bölgəsi press" adlı qəzetin təsisçisi Bəxtiyar Əliyev isə Aslanov Vasif Elman oğlu tərəfindən qətlə yetirilib. Rəsmi məlumatda qeyd edilib ki, Vasif Aslanov Bəxtiyar Əliyevi KİV adından şantaj əməlləri ilə məşğul olduğuna, onu şantaj etdiyinə görə qətlə yetirib.*

*· 2021-ci ildə ümumrespublika yayımlı KİV qurumlarından biri - Lider TV - öz fəaliyyətini dayandırıb. Bakı Kommersiya Məhkəməsi Lider televiziyasının müflis elan edilməsi ilə bağlı iddianı təmin edib. Bağlanan anda Lider TV əməkdaşlarının sayı təqribən 224 nəfər göstərilirdi.*

*· 2020-ci ildə 5 yeni onlayn KİV qurumu fəaliyyətə başlayıb.*




*· Adları beynəlxalq təşkilatların hesabatlarında həbsdə olan jurnalistlər kimi hallandırılan şəxslərdən bir qismi 2021-ci ildə sərbəst buraxılıblar və ya üzərlərindən şərti məhkumluq götürülüb. "Azadlıq" qəzetinin həbsdə olan bölgə müxbiri Elçin İsmayıllı Prezident İlham Əliyevin martın 18-də imzaladığı sərəncamla əfv edilib. “Bakupress” İnformasiya Agentliyinin həbsdə olan rəhbəri Şəfəq Ağacan (Ağabalayeva) da azadlığa çıxıb. Jurnalist Elçin Həsənzadə isə həbs cəzasını tam çəkdikdən sonra azadlığa çıxıb.*

*· Jurnalistlər üçün tikilən 3-cü binanın Şəhid ailələrinə verilməsi ilə bağlı təşəbbüs gündəmə gətirilib. Bu məqsədlə Prezidentə müraciət edilib. Müraciəti 38 nəfər KİV, jurnalist təşkilatı və QHT rəhbəri imzalayıb. Təşəbbüs birmənalı qarşılanmayıb. 132 nəfər jurnalist bu təşəbbüsün əleyhinə çıxıb. Mövzu qərar verilməmiş saxlanılıb.*

*· 2021-ci ildə bəzi rəsmi qurumlar tərəfindən jurnalistlərin informasiya almaq hüququnu zorakılıqla məhdudlaşdırma halları da qeydə alınıb. Dövlət Sərhəd Xidməti Mətbuat Xidmətinin rəhbəri mayor Rövşən Cahangirovun “Baku TV”nin əməkdaşlarına qarşı fiziki təzyiq göstərməsi ciddi tənqidlə qarşılanıb.*

*· Yazdıqları yazılara görə “Yeni Çağ” Media Qrupunun əməkdaşı Səxavət Həmidin yüksək məbləğdə cərimələnməsi, “Bumeranq” TV-nin baş redaktoru Elçin Rəhimzadənin uzun müddətli sorğu-sual edilməsi, "Kanal 13"-ün əməkdaşı Əvəz Hafizlinin reportaj hazırladığı anda fiziki zorakılığa məruz qalması media məkanında neqativ hadisələr kimi qeydə alınıb.*

Hesabat haqqında daha ətraflı məlumat almaq üçün JuHİ sədri Müşfiq Ələsgərli ilə əlaqə saxlayın.

*Email: mushfig.juhi@gmail.com*

*tel: +99450-324-6530*

*JuHİ Mətbuat Xidməti*

# BƏQƏRƏ SURƏSİNİN MESAJLARI

## Bəqərə surəsinin nüzul ortamı, mövzu və mesajları



(əvvəli ötən saylarımızda)

XII YAZI

**KİTABLARA İMAN**

Bu, imanın üçüncü şərtidir. Qurani-Kərim və hədislərdə kitablara imanla bağlı bu ölçülər var:

***- Allah Rəsulu buyurur: "... Allahın sözünün digər sözlərdən üstünlüyü Allahın yaratdıqlarına olan üstünlüyü kimidir"; (Tirmizi, Fəzailul-Quran, 25)***

***- Allah Rəsulu buyurur: "Allah dörd kitab və yüz səhifə göndərmişdir. Bunlardan əlli səhifə Şitə, otuz səhifə İdrisə, on səhifə İbrahimə, on səhifə Tövratdan öncə Musaya göndərmişdir. Bundan başqa Tövrat, İncil, Zəbur və Quranı da göndərmişdir..."; (İbn Hibban, Səhih, II, 276)***

***- kitab göndərmək uca Allahın insanlara rəhmətinin nəticəsidir, bu kitablar insanları cəhalətin qaranlıqlarından qurtarıb nura qovuşdurur;***

***- ilahi kitablar doğrunu yanlışdan, haqqı batildən, xeyiri şərdən ayırır;***

***- uca Allah Tövratı, Qurani-Kərimi "kəlamullah" (Allahın kəlamı) adlandırmışdır; (Bəqərə, 2/75; Tövbə, 9/6)***

***- uca Allah buyurur ki, ilahi kitablar Onun kəlamıdır; (Əraf, 7/144)***

***- uca Allah insanla (elçi ilə) hansı yollarla danışacağının ölçüsünü qoymuşdur: "Allah bəşər övladı ilə ancaq vəhylə, ya da (Musa kimi) pərdə arxasından danışar, ya da bir elçi (mələk) göndərər ki, o da Allahın izni ilə (göndərildiyi kimsəyə) Onun istədiyini vəhy edər. Həqiqətən, O (hər şeydən) ucadır, hikmət sahibidir!"; (Şura, 42/51)***

***- uca Allahın kəlamı sözlərin zirvəsidir;***

***- kitablara imanın mənası budur: kitablar uca Allahın kəlamıdır, doğrudur, içində mütləq həqiqəti daşıyır, hidayət rəhbərləridir: "Allah yanında Onun sözündən daha uca heç bir söz yoxdur. Bəndələri də Allaha Onun öz sözündən daha sevimli heç bir sözlə müraciət etməmişlər"; (Darimi, Fəzailul-Quran, 5)***

***- kitablar qaranlıqları yox edən nurdur; (Casiyə, 45/20)***

***- kitablar insana uca Allahı tanıdır. Ona ibadətin yollarını göstərir, sağlam əxlaqın əsaslarını açıqlayır, axirətlə bağlı bilgi verir, insanın vəzifələrini şərh edir;***

***- kitablar onlara inananları, onların buyurduğu həyat tərzini yaşayanları iki dünyanın səadətinə qovuşdurur;***

***- Tövrat hz.Musaya nazil edilmişdir; (Bəqərə, 2/53, 87)***

***- Zəbur hz.Davuda nazil edilmişdir; (Nisa, 4/163)***

***- İncil hz.İsaya nazil edilmişdir; (Maidə, 5/46)***

***- Qurani-Kərim hz.Məhəmmədə nazil edilmişdir; (Ali-İmran, 3/3)***

***- elçilər uca Allahın kitab, hökm və peyğəmbərlik verdiyi kimsələrdir; (Ənam, 6/89)***

***- ilahi kitablar özündən öncəki kitabları təsdiq edir, qaynağın eyni olduğunu vurğulayır: "Sənə özündən öncəki (səmavi kitabları) təsdiq edən Kitabı (Quranı) haqq olaraq O nazil etdi" (Ali-İmran, 3/3), "Onların ardınca Məryəm oğlu İsanı özündən əvvəlki Tövratı təsdiqləyici olaraq göndərdik. Ona içində haqq yolu və nur olan, özündən əvvəlki Tövratı təsdiq edən, müttəqilər üçün doğru yol və nəsihət olan İncili verdik"; (Maidə, 5/46)***

***- Qurani-Kərim kitablara imana özəl yer verir: "Biz Allaha, bizə nazil olana (Qurana), İbrahimə, İsmailə, İshaqa, Yaquba, onun övladına göndərilənlərə, Musaya və İsaya verilənlərə, Rəbbi tərəfindən (bütün) peyğəmbərlərə verilənlərə inanmışıq. Onlardan heç birini digərindən ayırmırıq. Biz ancaq Allaha boyun əyən müsəlmanlarıq"; (Bəqərə, 2/136)***

***- kitablara inanmamaq küfür və azğınlıqdır: "... Allaha, onun mələklərinə, kitablarına, peyğəmbərlərinə və axirət gününə inanmayan şəxs, şübhəsiz ki, (doğru yoldan) çox azmışdır"; (Nisa, 4,136)***

***- kitabların mənbə və mesajları eynidir, hamısı haqdır, həqiqətdir, hamısı mələklər vasitəsi ilə nazil edilmişdir; (Ənbiya, 21/25)***

***- ilahi kitabların dilləri fərqlidir, nazil edildiyi toplumun ehtiyacına uyğun özəl hökmləri də var; (Maidə, 5/48)***

***- səhifələr bizə gəlib çatmamışdır;***

***- Tövrat, Zəbur, İncil təhrif edilmişdir;***

***- Tövrat Əhdi-Ətiq, İncil Əhdi-Cədid adlandırılır;***

***- Zəbur "Məzmunlar" adı ilə Əhdi-Ətiq içərisində yer alır;***

***- təhrif olunmamış tək ilahi kitab Qurani-Kərimdir;***

***- kitablara iman ilahi kitabların pozulmamış halına aiddir;***

***- Qurani-Kərim ilahi kitablarda nəyin doğru, nəyin yanlış olduğunu müəyyən edən ölçüdür;***

***- Qurani-Kərim vəhylərin sonu və zirvəsidir, qorunmuşdur;***

***- O, bələdçidir; (İbn Hənbəl, IV, 183)***

***- Allahın ipidir; (Ali-İmran, 3/103)***

***- sağlam qulpdur; (Bəqərə, 2/256)***

***- şəfadır; (Yunus, 10/57)***

***- hidayət rəhbəridir; (Yunus, 10/57)***

***- rəhmət vəsiləsidir; (Yunus, 10/57)***

***- Allah Rəsulu buyurur: "Quranın haramlarını halal hesab edən ona iman etməmişdir"; (Tirmizi, Fəzailul-Quran, 20)***

***- ilahi kitablar ölülər üçün deyil, dirilər üçündür; (Yasin, 36/70)***

***- Qurani-Kərimi anlamaq fərzdir;***

***- Qurani-Kərim uca Allahın insana ümididir, O, insana ümid etməsə idi, kitab göndərməzdi;***

***- Qurani-Kərim söz cənnətidir;***

<u>Allah Rəsulu Qurani-Kərimi belə tanıdır</u>:

***- içində sizdən öncəkilərin və sonrakıların xəbərləri var;***

***- aranızdakı məsələlərin hökmü ondadır;***

***- haqq ilə batili bir-birindən ayırır;***

***- qəti hökmdür;***

***- mənasız, boş söz və oyun deyildir;***

***- Allah onu tərk edən dikbaşları rəzil edər;***

***- kim doğru yolu Allahın Kitabından başqa bir yerdə axtararsa, Allah onu azdırar;***

***- Allahın sağlam ipidir;***

***- hikmət dolu sözlərdir;***

***- doğru yoldur;***

***- Ona əsaslanaraq danışanın sözü təsdiqlənər;***

***- Onunla əməl edən savab qazanar;***

***- Onunla hökm edən ədalətlə davranmış olar;***

***- Ona dəvət edən insan da doğru yola yönləndirmiş olar; (Tirmizi, Fəzailul-Quran, 14)***

**PEYĞƏMBƏRLƏRƏ İMAN**

<u>Qurani-Kərimdə və hədislərdə peyğəmbərlərə imanla bağlı bu ölçülər qoyulmuşdur</u>:

***- Allah Rəsulu buyurur: "... Mənə iman etməyən insan Allaha da iman etməmişdir..."; (İbn Hənbəl, VI, 382)***

***- Allah Rəsulu hansı əməl daha xeyirlidir sualına belə cavab vermişdir: "Allaha və Rəsuluna iman etmək"; (Nəsai, İman, 1)***

***- Allah Rəsulu buyurur: "...Peyğəmbərlər ataları bir, anaları ayrı qardaşdırlar. Dinləri isə təkdir"; (Buxari, Ənbiya, 48)***

***- Allah Rəsulu buyurur: "Məni görüb iman edənlər nə xoşbəxtdirlər!" – O, bu sözü bir dəfə təkrar etdi, sonra: "Məni görmədən iman edənlər nə xoşbəxtdirlər!" – buyurdu və bu sözü yeddi dəfə təkrar etdi"; (İbn Hənbəl, III, 155)***

***- elçilərə iman imanın şərtlərindən biridir; (Ali-İmran, 3/179; Nisa, 4/136)***

***- onları uca Allah seçir;***

***- uca Allah elçilərə iman edilməsini istəmişdir;***

***- elçilərə iman onların uca Allahdan gətirdiklərinə imandır;***

***- heç bir ilahi kitab peyğəmbərsiz göndərilməmişdir;***

***- kitab sahibi olmayan elçilər də var;***

***- uca Allah buyurur: "Biz hər ümmətə Allaha ibadət edin, Tağutdan çəkinin! – deyə elçi göndərmişik"; (Nəhl, 16/136)***

***- elçilər müjdə verir, xəbərdar edir; (Nisa, 4/165)***

***- elçi göndərmək uca Allahın insanlara lütfüdür: "Allah möminlərə lütf etdi. Onların arasından onlara (Allahın) ayələrini oxuyan, onları (pis əməllərdən) təmizləyən, onlara Kitabı (Quranı) və hikməti öyrədən bir elçi göndərdi. Onlar bundan əvvəl açıq-aydın zəlalət içərisində idilər";(Ali-İmran, 3/164)***

***- elçilər ilahi mesajı olduğu kimi çatdırırlar: "Əgər o (elçi) özündən bəzi sözlər uydurub Bizə aid etsə idi, Biz ondan mütləq şiddətli intiqam alardıq! Sonra onun şah damarını qopardıq!"; (Haqqa, 69/44-46)***

***- elçiləri qəbul etməmək uca Allahın varlıqla, insan həyatı ilə əlaqəsini, dini, kitabları rədd etməkdir;***

***- elçiyə iman uca Allaha imandır;***

***- onu inkar edən onu göndərəni inkar etmiş olur;***

***- elçiyə iman uca Allahın buyruqlarını yerinə yetirməyi tələb edir;***

***- elçilərə iman onların örnəkliyini qəbul etməkdir;***

***- elçilər uca Allahın qulu və elçiləridirlər;***

***- qeybi bilmirlər;***

***- hz.İsa uca Allahın oğlu deyil, qulu və elçisidir;***

***- bütün elçilərə iman imanın şərtidir: "Allahı və elçilərini inkar edənlər, Allahı elçilərindən ayırmaq istəyənlər "Biz elçilərdən bəzisinə inanır, bəzilərinə isə inanmırıq", - deyənlər və bunun (iman ilə küfür) arasında bir yol tapmaq istəyənlər – onların hamısı, həqiqətən, kafirdirlər..."; (Nisa, 4/150-151)***

***- mömin elçilər arasında fərq qoya bilməz; (Bəqərə, 2/136)***

***- elçi insanları təmizləyir, Qurani-Kərimə görə bunu beş yolla gerçəkləşdirir:***

**a)** öyüd verir;

**b)** dua edir;

**c)** zəkat, sədəqə alır;

**d)** uca Allahdan bağışlanma istəyir;

**e)** cəzalandırır;

***- uca Allah elçilərə iman edənlərə mükafat vəd edir; (Nisa, 4/152; Buxari, Bədul-xəlq, 8)***

***- uca Allah elçilərinə möcüzələr vermişdir, hz.Nuhun tufanı var, (Hud, 11/36-48; Möminun, 23/26-30) hz.İbrahim atəşdə yanmır, (Ənbiya, 21/68-69)***

***hz.Musanın əlindəki əsa ilana çevrilir, əsasını dənizə vurur, dəniz yarılır (Taha, 20/17-21; Şuəra, 26/61-66), hz.Süleyman quş və qarışqa ilə danışır (Nəml, 27/18-28), hz.İsa ölüləri dirildir, hz.Məhəmmədin bütün insanlığa göndərilmiş Qurani-Kərimi var;***

***- uca Allah elçilərə inanmayan qövmlərin aqibətindən ibrət almağa dəvət edir: "(Ey müşriklər!) Yer üzündə dolaşıb görün ki, (elçiləri) yalançı hesab edənlərin axırı necə oldu!"; (Nəhl, 16/36)***

***- Allah Rəsulu ona iman edənlərə müjdə verir: "Allahdan başqa ilah olmadığına, Məhəmmədin Onun Rəsulu olduğuna şəhadət edən və bunu qəlbdən təsdiq edən insanı Allah mütləq surətdə cəhənnəmə haram buyurmuşdur"; (Buxari, Elm, 49)***

**AXİRƏTƏ İMAN**

<u>Axirətə iman imanın şərtlərindən biridir. Qurani-Kərim və hədislərdə axirətə imanla bağlı bu ölçülər var</u>:

***- Allah Rəsulu buyurur: "Allaha və axirət gününə iman edərək ölən insana: "Cənnətin səkkiz qapısının hansından istəsən daxil ol", - deyilər"; (İbn Hənbəl, I, 17)***

***- Allaha və axirət gününə iman edən insan qonağını yedirib-içirsin. Allaha və axirət gününə iman edən insan qonşusunu narahat etməsin. Allaha və axirət gününə iman edən insan ya xeyir söyləsin, ya da sussun; (Əbu Davud, Ədəb, 122, 123)***

***- "axirət" sözü "a-x-r" kökündəndir, Qurani-Kərimdə eyni kökdən olan sözlərin sayı iki yüz əllidir, bu mənaları var:***

**a)** "ertələmək" – "Biz onu (qiyamət gününü) sadəcə sayılı bir müddətə qədər təxirə salarıq"; (Hud, 11/104)

**b)** "geri qalmaq" – "De ki, sizə elə bir gün vəd edilmişdir ki, ondan nə bir saat geri qala, nə də irəli keçə bilərsiniz"; (Səbə, 34/30)

**c)** "başqası" – "Hərəsi bir qurban təqdim etmişdilər, birindən qəbul edilmiş, başqasından qəbul edilməmişdi"; (Maidə, 5/27)

**d)** "son" – "O, ilkdir, sondur, zahirdir, batindir" (Hədid, 57/3).

Qurani-Kərimin yüz əlli dörd yerində ***"axir" / "əl-axir", "əl-axirən" / "axirən"*** sözləri ***"son", "son zaman", "axirət"*** anlamında işlədilmişdir (Mehmet Okuyan, Çok anlamlılık bağlamında Kuran sözlüğü, s. 70-72)

***"Axir"*** əvvəlin ziddidir. Bu dünya üçün ***"darud – dünya"***, axirət üçün ***"darul-axirət"*** ifadələrindən istifadə edilir ***("dünya yurdu", "axirət yurdu")***. Qurani-Kərimdə ***"əl-yovmul-axir" ("son gün"), "əd-darul-axirə"***, ya da ***"darul-axirə" ("son gedilən yer"), "ən-nəşətul-axirə" ("ikinci yaradılış", "son xilqət")*** ifadələrinə yer verilir, axirət dünya ilə müqayisədə tanıdılır (Qurani-Kərimdə ***"axirət"*** sözü ilə ***"dünya" / "bu dünya"*** sözlərinin sayı eynidir. ***"Axirət"*** sözü tək işlənəndə (dünya ilə müqayisə edilmədən) ***"əd-darul-axirə" ("axirət yurdu")*** anlamına gəlir.

***- bütün elçilər axirətə imanı təbliğ etmişlər;***

***- axirətə iman səmavi kitabların ortaq dəyəridir;***

***- axirətə iman mömin olmağın şərtidir: "O kəslər ki, namaz qılar, zəkat verər, axirətə tam yəqinliklə inanarlar"; (Loğman, 31/4)***

***- Qurani-Kərimdə axirətə iman uca Allaha imanla bir arada təqdim olunur, axirəti inkar uca Allahı inkardır;***

***- Allah Rəsulu axirəti imanla həyat arasında bağ/əlaqə qurur. Buyurur ki, axirətə inanan:***

***- qonağına yemək versin; (Əbu Davud, Ədəb, 122, 123)***

***- qonşusunu narahat etməsin; (Əbu Davud, Ədəb, 122, 123)***

***- ya xeyir danışsın, ya da sussun; (Əbu Davud, Ədəb, 122, 123)***

***- əsla içki olan süfrədə oturmasın; (İbn Hənbəl, I, 20)***

***- üç gündən çox yas tutmasın; (İbn Hənbəl, VI, 250)***

***- zina etməsin; (İbn Hənbəl, IV, 108)***

***- bölünməmiş qənimət malını satmasın; (İbn Hənbəl, IV, 108)***

Ardı var...

<u>**Sıracəddin Hacı**</u>

# Nəticəsiz bitən ABŞ-Rusiya danışıqları

## Tarixin çarxını geri fırlatmaq cəhdləri

**İkinci Dünya müharibəsindən sonra iki qütb arasındakı gərginlik dünyanı iki düşmənə bölmüşdü. Keçmiş SSRİ ilə ABŞ arasında onda yaranmış münasibəti "soyuq müharibə" adlandırırdılar. Sovetlərin dağılması ilə bu savaşın başa çatdığı zənn edilirdi. Ancaq sonrakı illərdə özünü SSRİ-nin varisi sayan Rusiyanın yenidən güc mərkəzinə çevirilmək cəhdi yeni gərginliklərin və münaqişə ocaqlarının yaranmasına səbəb olub.**

Rusiya və ABŞ başda olmaqla Qərb bloku arasında münasibətlərin gərginləşməsinin başlıca səbəbi nüfuz dairəsinin bölüşdürülməsidir. Cənubi Qafqazda, Moldovada baş verənlərin ardınca Ukraynadakı hadisələr bu ziddiyyəti daha da qabartdı. 2014-cü ilin yanvar-fevral aylarında baş verən hadisələr Ukrayna üçün ərazisinin ilhaq olunması və Donbasda terrorçu-separatçıların baş qaldırması ilə nəticələnib. Hadisələr ona görə baş verdi ki, Ukrayna Avropa İttifaqına və NATO-ya üzv olmaq istəyir. Rusiya bunu qəbul etmək istəmir. Çünki Ukraynanın üzvlüyü ABŞ və Alyansın Rusiya sərhədlərində yerləşməsidir. Düzdür, Baltikyanı keçmiş sovet respublikaları da bu iki qurumun üzvləridir. Ancaq keçmiş SSRİ-də olduğu kimi, Rusiya da bu ölkələri daha çox Avropa sayır və hətta onu Qərbə güzəştə belə getməklə razılaşmış kimi də görünür. Son zamanlar Rusiyanın Ukrayna sərhədlərinə əlavə qoşun yeritməsi rəsmi Kiyev və Qərbdəki müttəfiqlərin narahatlığına və narazılığına səbəb olub. Moskva yaranmış gərginliyin azaldılması məqsədilə qarşı tərəfi danışıqlara dəvət edir. 2021-ci il dekabrın 17-də bu məqsədlə Rusiya ABŞ, Avropa İttifaqı və NATO-dan təhlükəsizliyinə qəti təminat verilməsini istəyir.

Bu il yanvarın 9-da ABŞ və Rusiya nümayəndələri arasında Cenevrədə ilkin danışıqlar keçirilib. Yanvarın 10-da isə görüş rəsmi nümayəndələrin rəhbərliyi altında baş tutub. Rusiya nümayəndə heyətinə xarici işlər nazirinin müavini Sergey Ryabkov və ABŞ nümayəndə heyətinə isə dövlət katibinin birinci müavini Vendi Şerman başçılıq edib. Yanvarın 12-də Brüsseldə Rusiya-NATO Şurasının iclasının keçirilməsi planlaşdırılıb. Yeri gəlmişkən, Şura 2002-ci il mayın 28-də yaradılıb. 2008-ci ilin avqustunda Rusiya ilə Gürcüstan arasında Cənubi Osetiyada baş verənlərə görə yaranmış hərbi münaqişə səbəbindən Moskvaya qarşı məhdudlaşdırıcı tədbirlər çərçivəsində Şuranın fəaliyyəti dayandırılmışdı. 2014-cü ildə Krımın ilhaqından və Ukraynanın şərqində baş verən hadisələrdən sonra NATO ilə Ukrayna arasında uzunmüddətli tərəfdaşlıq qeyri-müəyyən müddətə dayandırılıb. 2017-ci ildə Suriya və İraqda hadisələr fonunda tərəflər arasında təmaslar bərpa olunmuşdu. Bununla belə, Şuranın toplantıları keçirilməyib.



Yanvarın 10-da keçirilən ABŞ-Rusiya nümayəndə heyətləri arasında görüş bağlı qapılar arxasında 7,5 saat sürüb. Sergey Ryabkov görüşdən sonra bildirib ki, danışıqlar çətin keçsə də, işgüzar olub. Onun sözlərinə görə, Ukrayna və Gürcüstanın NATO-ya üzvlüyü Budapeşt sammitinin qərarı kontekstində mümkündür. Qeyd edək ki, Rusiya NATO-dan keçmiş sovet respublikaları hesabına genişlənmədən imtina etməsini, yaxın və ortamənzilli raketlərin bir-birinə çatacaq məsafədə yerləşdirməməsini və həmin ərazilərdə keçirdiyi təlimlərin sayını azaltmasını istəyir. Bu, ABŞ və NATO-nun Rusiyanın təsir dairəsində olan ərazilərə girməməsi, yaxud həmin dövlətlərin Alyansa və Avropa İttifaqına qəbul edilməməsi anlamına da gəlir. Rusiya Qərb blokuna bildirmək istəyir ki, keçmiş SSRİ-yə daxil olan bu ərazilər onun təsir dairəsindədir. Əks halda həmin yerlərdə münaqişələrə həll edilməsi mümkün olmayacaq.

ABŞ və NATO isə keçmiş sovet respublikaları ilə münasibətləri Rusiyanın icazəsi olmadan davam etdirmək niyyətlərini gizlətmir. Onlar hesab edirlər ki, bu həmin respublikaların suveren hüquqlarıdır. Ukrayna məsələsinə gəldikdə isə şərtlər bir az da genişlənir. Qərb Rusiyanın Krımdan çıxmasını, Donbasda hərbi əməliyyatları dayandırmasını, Ukrayna ilə sərhədə topladığı hərbi kontingenti geri çəkməsini tələb edir. Avropaya yaxın və ortamənzilli raketlərin yerləşdirilməsi məsələsinə gəldikdə isə ABŞ və Rusiya yaxın və ortamənzilli raketlərin ləğv edilməsi istiqamətində fəaliyyətini 2019-cu il avqustun 2-də dayandırıb. Rusiya Avropaya "Novator 9M729" yeni raket sistemi yerləşdirdiyindən ABŞ da bu razılaşmadan çıxıb. Bununla belə, ABŞ Prezidenti Cozef Bayden Rusiya Prezidenti Vladimir Putinlə telefon danışığı zamanı Ukraynaya hücum silahları yerləşdirmək niyyətində olmadıqlarını bildirsə də, sanksiyaların tətbiqini istisna etməmişdi. Onda Putin münasibətlərin tamamilə pozulacağını qeyd etmişdi.

ABŞ senatorları iki ölkə nümayəndələri arasında keçirilən görüşdən əvvəl Prezident Cozef Baydendən Ukrayna və Şərqi Avropa ölkələrinin təhlükəsizliyini gücləndirməyə çağırmışdılar. Bu isə NATO-nun Polşa, Litva, Latviya, Estoniya və Qara dəniz regionunda, o cümlədən Bolqarıstanda gücünü artırması deməkdir.

Qazaxıstanda baş verənlər bir daha sübut edir ki, Rusiya keçmiş sovet respublikalarına ABŞ və NATO-dan daha yaxındır və daha tez çatır. Bu isə ABŞ və NATO-nun keçmiş sovet blokuna aid ərazilərlə bağlı yeni yanaşma hazırlamasını zəruri edir.

ABŞ-la Rusiya arasında danışıqların nəticəsiz başa çatması, yaxud müzakirələrin çətinliyi də tərəflərin mövqelərindən geri çəkilməməsidir. Bu baxımdan onlar arasında razılaşmanın olmaması beynəlxalq gərginliyin artmasına təkan verir, dünyada təhlükəsizliyi və sülhü təhdid edir. ABŞ və NATO-dakı müttəfiqləri ilə Rusiya arasında mövcud vəziyyət dünyanı yeni silahlı qarşıdurmaya sürükləyir. Bu həm də yeni silahlı münaqişə ocaqlarının yaranmasına da səbəb ola bilər.

Belə qütbləşmə və ziddiyyətlər bütün tərəflərlə əməkdaşlığa üstünlük verən dövlətləri dilemma qarşısında qoyur. Yaranmış vəziyyət tarixin çarxını geri fırlamağa çalışanlara fürsət verir.

***Sədrəddin İsmayılov***




## ABŞ-dan Türkiyəyə dəstək: Yunanıstanın 7 milyardlıq layihəsi rədd edildi

**ABŞ Yunanıstanın İsrail və Cənubi Kiprlə birgə hazırladığı "EastMed" təbii qaz boru kəməri layihəsini yüksək qiymətə olduğuna görə və eyni zamanda ətraf mühitə uyğun olmadığına görə faydalı hesab etməyib.**

Yunan mediası Vaşinqtonun bu addımını Ankaraya yaxınlaşmaq üçün edilən cəhd kimi qiymətləndirib.

Məlumat üçün deyək ki, Afinanın böyük ümid bəslədiyi *"EastMed"* təbii qaz kəməri layihəsinə ABŞ qırmızı vərəqə göstərdikdə Şərqi Aralıq dənizində balanslar Türkiyənin xeyrinə dəyişir. Yunanıstan, İsrail və Cənubi Kipr administrasiyasına göndərilən *"məcburi olmayan sənəd"*də mövqeyini açıqlayan ABŞ Dövlət Departamenti layihəni yüksək maliyyə tutumu ilə yanaşı, siyasi baxımdan da faydalı görmədiyini açıqlayıb. Sənədə layihənin ekoloji baxımdan təmiz olmadığı da əlavə olunur.

Yeri gəlmişkən, Türkiyənin qitə şelfindən keçsə də, Ankaradan yan keçən layihəyə ABŞ-ın bu münasibəti Afinanın və Cənubi Kipr administrasiyasının məyusluğuna səbəb olub. Yunan mediası ABŞ-ın bu addımını *"Vaşinqton Ankaraya göz yumdu, ABŞ Türkiyənin maraqlarına xidmət edir"* kimi şərh edir.

*"EastMed"*in uğursuzluğunun Afinaya və Cənubi Kiprə zərər verəcəyini yazan *"Kathimerin"* qəzeti ABŞ-dan dəstəyini geri çəkməsi qarşısında səssiz qalan İsrailin *"itirəcək bir şeyinin olmadığını"* bildirib. Qəzet qeyd edib ki, İsrail təbii qazının bir hissəsini Misirə, bir hissəsini də əlaqələri yaxşılaşdırmağa başladığı Türkiyəyə ixrac edə bilər.

*"Ta Nea"* qəzetində *"ABŞ-ın qərarı Yunanıstanın Şərqi Aralıq dənizi siyasətinin əsas elementlərindən birinin ölüm şəhadətnaməsidir"* kimi şərh edilir.

Yunan hökuməti də 2020-ci ilin yanvarında imzalanan layihənin ABŞ-ın dəstəyi olmadan həyata keçirilə bilməyəcəyini qəbul etməyə başlayıb. Hökumət sözçüsü Yanis İkonomudan *"EastMed"* üçün planların dəyişibdəyişmədiyi haqda danışarkən deyib ki, Afina bu layihəni əvvəldən dəstəkləyib: *"Eyni zamanda, iqtisadi və texnoloji cəhətdən reallaşma ehtimalı daha yüksək olan layihələri də dəstəklədik"*.

2020-ci ilin yanvarında Afinada imzalanmış saziş İsrail, Cənubi Kipr və Yunanıstan üçbucağında uzunluğu təxminən 2000 km olan təbii qaz kəmərinin tikintisini nəzərdə tutur. 7 milyard avroya başa gəlməsi və ildə 10 milyard kubmetr təbii qazın Avropaya daşınması gözlənilən layihə Türkiyə qitə şelfindən keçməklə Türkiyəni sıradan çıxarırdı.

***Nemət***

# Nadir Israfilov: "Əgər uşaq məktəbdə "Robin Qud"luq edirsə, bəs onda nə etməli...?"

## "Bütün baş verənlər uşaqlara qarşı cəzasızlıq sindromunun fəsadlarıdır..."

**Məktəblərdə müəllimlər tərəfindən pul yığılması barədə söz-söhbətlər səngiməmiş, uşaqların məktəb direktoru tərəfindən döyülməsi gündəmin müzakirəsinə çevrildi. Bir ara da, saxta diplomlu müəllimlər hədəf öbyektinə çevrilmişdilər və cəmiyyətdə belə bir fikir formalaşmışdı ki, saxta diplomlular elə təkcə müəllimlərdir, pul yığımı da elə yalnız məktəblərdə baş verir, uşaq döymək də, elə təkcə müəllimə xas olan xüsusiyyətdir...**

Maraqlı olduğu qədər də, təəccüblləndirici və təəssüfləndirici haldır ki, sanki məktəb, müəllim mövzusundan başqa digər mövzumuz yoxdur və yaşadığımız mühit elə təkcə məktəb, müəllim və şagirddən ibarətdir. Nə demək olar, onu da bilmək olmaz ki, bəlkə də bu sosial sifariş olub, müəyyən qüvvələr tərəfindən ortalığa atılan bir oyundur. Baxmayaraq ki, bilərəkdənmi, bilməyərəkdənmi, məktəbin, müəllimin, adının yerli-yersiz qalmaqallarda hallandırılması nəinki, təhsilimiz üçün, bütövlükdə cəmiyyətimiz üçün də baş ucalığı gətirən hal deyil.



Bununla belə, baş verənlərin səbəblərini aydınlaşdırmağın vacib olduğunu, ancaq belə hadisələr üzərində şoular düzəltməyə ehtiyac olmadığını bildirənlər, tərbiyə və təhsiln bir paraleldə inkişaf edən amillər olduğunu, tərbiyənin müəyyən bir qisminin ailə ilə əlaqar olub, digər faizinin məktəblə bağlı oldugu qənaətində olanlar da var. Əgər belə bir qənaətə gəlsək ki, təlim və tərbiyə bir sosial element kimi cəmiyyətin digər üstqurum və bazis elementləri ilə şərtlənir, mövcud əxlaqi keyfiyyətlər sosial, iqtisadi, hüquqi və s. münasibətlər təlim-tərbiyə prosesinə təsirsiz ötüşmür, deməli hadisənin səbəblərini daha dərində axtarmalıyıq.

Elə götürək, müəllimin uşağı döyməsi faktını. Uşaq hüquqları Konvensiyası, Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının qanunu və bir çox normativ-hüquqi aktlar cəzalandırma vasitəsi kimi uşağa fiziki zorakılıq tətbiq etməyi qadağan edir. Yəni bu sənədlərə əsasən uşağın azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır. Bu mənada uşaqlarla qəddar rəftara yol verilməsi, onlara qarşı psixi və fiziki zor tətbiq edilməsi mövcud qanunvericiliyə görə inzibati, hətta cinayət məsuliyyətinə səbəb olur. Müəllimlərin etik davranış qaydaları hazırlanıb, peşə standartları tərtib olunub. Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsində müəllimlərin və şagirdlərin hüquq və vəzifələri konkret şəkildə öz əksini tapıb.

Elə isə nə baş verir...? Istəsək də, istəməsək də razılaşmaq zorundayıq ki, müasir dövrümüzdə tərbiyə məsələləri öz əvvəlki mahiyyətini, dəyərini və aktuallığını hələ tam itirməsə də, itirməyə meyllidir. Başqa sözlə ifadə etsək, təlimə "ifrat dərəcədə" aludəçiliyimiz tərbiyə məsələlərini arxa plana keçirib. Hətta, məktəbəqədər tərbiyə müəssisəsi adlandırdığımız uşaq bağçalarında belə, təhsil tərbiyəni üstələyir, məktəbəqədər yaşlı uşaqların harmonik inkişafını və tərbiyəsini lazımı səviyyədə təmin etmir.

Bununla belə, məktəblərdə təlim-tərbiyə işinin təşkilinə dair nə qədər fərqli təlimat, metodiki tövsiyə, əsasnamə və digər istiqamətləndirici normativ sənəd olsa belə, zəmanəmizdə tərbiyə işi, bir növ məzmun və mahiyyətinə diqqət azalan mənəvi dəyərlərdən birinə çevrilib. Səbəb nədir? Ən başlıca səbəblərdən biri heç şübhəsiz ki, tərbiyə, təhsil, təlim və şəxsiyyətin vəhdətini özündə ehtiva edən pedaqoji prosesin təlim, tərbiyə və tədrisin forma və metodlarını öyrənən pedaqogika, psixologiya, fiziologiya kimi elmlərdən ayrı düşməsidir.

Bu məsələyə sırf pedaqoji aspektdən yanaşmaq, onu bilavasitə təhsilin mövcud durumu ilə əlaqələndirmək də, məsələyə birtərəfli yanaşmaqdan başqa bir şey olmazdı. Bu kimi halların baş verməsi daha çox sosial xarakterli məsələdir. Dəyərlər dəyişib, düşüncə və yanaşma tərzimiz başqalaşıb, tələb və təklif prinsipləri yenilişib. Əgər rüşvət, saxtakarlıq, zorlama və digər xarakterik hallar cəmiyyətin hansısa bir zümrəsi tərəfindən sıradan adi-hal, hətta norma kimi qəbul edilirsə, belə hallara məktəbdə digər təhsil müəssisələrində yol verildikdə, bu təbii ki, ictimaiyyət tərəfindən daha çox qınaq obyektinə çevrilir, az qala faciə səviyyəsinə qaldırılır. Halbuki, qloballaşma prosesi, elmi-texniki tərəqqi, yüksək texnologiyaların insani münasibətlərin önünə keçməsi əsas bilik, bacarıq, vərdiş, dünyagörüşü və tərbiyə elementlərinin ötürücüsü kimi məktəb faktorunu böyük ölçüdə arxa plana keçirib.

Hesab edirəm ki, problemin bu yolla "ictimailəşdirilməsi" heç də vəziyyətdən çıxış yolu deyil, əksinə... Çıxarılacaq nəticə isə ondan ibarətdir ki, pedaqoji prosesdə təlim və tərbiyə vəhdət təşkil etməyəcəksə, səriştəli və şəxsiyyətyönlü vətəndaş yetişdirmək kimi əsas məqsədimizi həyata keçirməkdə problemlərlə üzləşməyimiz də, bir o qədər qaçılmaz olacaq. Xüsusilə son zamanlar məktəblərimizdə müəllimlər və şagirdlər arasında və bütövlükdə cəmiyyətimizdə baş verən, sadalamağa ehtiyac olmayan bir çox arzuolunmaz neqativ təzahürlər belə bir qənaətə gəlməyə əsas verir.

Hansısa bir və ya bir neçə kollektivdə baş vermiş və ya baş verə biləcək bu kimi halların bütövlükdə müəllim şəxsiyyəti fonunda ümumiləşdirilməsi yolverilməzdir. Müəllimi tənbeh etmək də olar, cəzalandırmaq da, onun barəsində inzibatı və ya hüquqi müstəvidə cinayət işi də qaldırmaq olar, lakin onunla bağlı hər hansı bir təzahür və faktların ictimailəşdirilməsində ifrata yol vermək olmaz. Bir həqiqəti də unutmayaq ki, məktəb cəmiyyətin bir parçasıdır. Cəmiyyətdə gedən proseslər məktəbə də, müəllimə də təsirsiz ötüşməyə bilməz. Məktəbi, müəllimi "Günah keçisi" qismində önə çəkmək nəinki, təhsilimizə, cəmiyyətimizə hec şəxsiyyətimizə də baş ucalığı gətirmir.

O da başa düşüləndir ki, hər bir valideyn üçün övladının sağlamlığı onun təhsilindən daha önəmlidir. Onun övladına uzadılan əl, vurulan şillə ona uzadılan, vurulan şillədir. Lakin, müəllim də insandır, onun da əsəbləri var, dözüm limiti var. Uşağı döymək olmaz, söymək olmaz, sinifdə saxlamaq olmaz, məktəbdən qovmaq olmaz, loru dildə desək, "gözün üstə qaşın var" da demək olmaz. Əgər uşaq məktəbdə "Robin Qud"luq edirsə və valideyn də övladının öhdəsindən gələ bilmədiyini etiraf edirsə, bəs onda nə etməli...?

**İlk növbədə təhsil qanunvericiliyimizdə dəyişiklik edilməlidir. Düzdür, "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"nə müəllimlərin, şagirdlərin və valideynlərin hüquq və vəzifələrinə dair müəyyən müddəalar daxil edilib. Lakin bunlar yaranan vəziyyəti stabilləşdirmək üçün kifayət edirmi? Nə vaxta qədər deyək ki, şagirdin məktəbdən yayınmasına görə məktəb rəhbərliyi sorumlu olacaq? Bir çox dünya ölkələrində valideynin məsuliyyəti qnunvericiliklə təsbit olunursa, biz niyə belə bir təcrübədən yararlanmayaq?**



## "Evdə döyülən uşaq məktəbdə də döyülməsə, sakitləşmir"

**Son zamanlar hər gün müəllim-şagird qalmaqalı ilə bağlı xəbərlər eşidirik. Müntəzəm olaraq müxtəlif tədris müəssisələrində bu hallara rast gəlinir. Müəllimlərlə şagirdlər yola getməyə çətinlik çəkirlər. Belə demək mümkündürsə, şagirdlər müəllimləri dinləmək, müəllimlər isə şagirdləri anlamaq istəmirlər. Obrazlı desək, birinin sözü digərinin boğazından keçmir.**

Ekspertlər bunu müxtəlif səbəblərlə izah edirlər. Hətta müəllimin sovet dövründəki kimi pak varlıq olmadığını iddia edənlə də var. Onların fikrincə, ilk növbədə müəllim özü öz nüfuzunun qeydinə qalmalıdır.

Təhsil eksperti Elşən Qafarov Yeni-sabah.az-a açıqlamasında deyib ki, ümumtəhsil məktəblərində baş verən neqativ halların əsas səbəbi nizamnamənin olmamasıdır: *"Sovet dövründə də nizamnamə yox idi. Lakin bu dərəcədə deyildi. Həmin dövrdə cəmiyyətdə tərbiyyə sistemi mövcud idi. Tərbiyyə sistemi aradan qalxıb. Bu da məsələnin bir tərəfidir.*

*Nizamnamədə məktəbin idarə olunması kimi məsələlər öz əksini tapır. Nizamnamədə təhsil alanın, təhsil verənin, valideynin hüquqları və vəzifələri, məsuiyyəti öz əksini tapır. Bu olduqda artıq valideyn uşağını məktəbə gətirən zaman hansı sinifdə olursa, olsun məktəbin nizamnaməsi ilə tanış oluqdan sonra uşağın sənədlərini ona verir. Bundan sonra hər hansı neqativ hal baş verəndə kimsə qayıdıb deyə bimæz ki, məlumatım yox idi".*

Ekspertin sözlərinə görə, digər bir problem Təhsil Nazirliyinin təhsil müəssisələrini idarə etmək iqtidarında olmamasıdır: *"Hazırda Təhsil Nazirliyi təhsil müəssisələrini idarə etmək iqtidarında deyil. Səbəb ondan ibarətdir ki, təhsillə birbaşa bağlı olmayan insanlar bu gün idarəetmə sistemindədir. Xaricdə təhsil aldığına görə, kriteriyalara cavab verdiyi üçün işə götürülür. Lakin bu doğru yanaşma deyil. Bu da öz mənfi nəticəsini göstərməkdədir. Başqa bir səbəb də odur ki, təhsili idarəetmə orqanlarının hüquq və vəzifələri məlum deyil.*

*İkinci ən böyük problem məktəblərdə metodik işinin aparılmamasıdır. Təhsil Nazirliyi hər hansı neqtiv hal baş verən kimi çalışır ki, bu hallar açıqlanmasın. Çünki neqtiv halların üstü açıldıqca, hamı görürük ki, bu cür hallar nə qədər çox imiş".*

E.Qafarov qeyd edib ki, fiziki cəzanın tətbiq edilməsinə qarşıdır: *"Biz demirik ki, fiziki cəza tətbiq olunsun. Bütün proseslər nizamnamə və qayda-qanunun, nəzarət sisteminin olmamasından qaynaqlanır. Gəlin araşdıraq, müəllimi o vəziyyətə gətirən o uşaq, o şagird evdə necədir? Bir uşaq evdə söyülürsə, o uşaq məktəbdə söyülməsə, nizam-intizam olmur. Evdə döyülən uşaq məktəbdə də döyülməsə, sakitləşmir. Evdə doğru-düzgün tərbiyyə almış şagirdə isə bir kəlmə də bəs edir. Hər şeyi məktəbin, müəllimin üzərinə atmaq olmaz".*

**Nəzrin Vahid**

# 69 il öncəki Berlin qırğını

## Kremlin qazaxlarla davranışının presedenti

**Təkcə son 70 ildə Moskva-Kremlin başqa ölkələrə qoşun yeritməsinə dair xeyli faktlar var: Almaniya Demokratik Respublikası (1953), Macarıstan (1956), Çexoslavakiya (1968), Əfqanıstan (1979), Gürcüstan (2008).**

Bu sıraya Moskvanın SSRİ-yə daxil olan, rəsmən *"müttəfiq respublika"* adlanan federsiya subyektlərinə hərbi müdaxilə etməsi faktları daxil deyil. Qazaxıstanın Alma-Ata (1986), Gürcüstanın Tbilisi (1989), Azərbaycanın Bakı (1990), Litvanın Vilnüs (1991) şəhərlərində törədilmiş qırğınlar başqa siyahıya daxildir.

Kremlin xalq etirazlarını, iğtişaşları hərbçilərin əliylə ram etməsinə dair faktlar isə daha çoxdur. Hələ Leninin vaxtından bəri sovet hökuməti hansı şəhərdə (Həştərxandan Novoçerkasska qədər) bir gündən artıq davam edən xalq etirazıyla üzləşibsə, dərhal funksiyası xarici intervensiyaya sipər olmaq olan hərbi qüvvələri qabağa verərək qırğınlar törədib.

Ancaq bunlar, necə deyərlər, bir ölkənin daxili işləridir. Dünya birliyi belə kütləvi qırğınları yüngülvari pisləsə də, söhbəti çox uzatmır, cəza sanksiyaları tətbiq etmir.



Başqa bir ölkənin sərhədlərini keçərək, əhalisini silah gücünə sakitləşdirmək isə beynəlxalq aləmdə daha çox təpki doğurur. Bu zaman həmin ölkədən hərbi müdaxilə üçün dəvətin olub-olmaması əhəmiyyət kəsb etmir, qınaq çox olur, amma ona da rus liderləri məhəl qoymurlar.

Əslində, Moskva-Kreml o cür *"dəvət"*ləri zaman-zaman özü təşkil edib, müdaxilə etmək istədiyi dövlətin rəhbərliyindən yalandoğru hərbi yardım müraciəti almaq ona çətin olmayıb. Ancaq bəzən kotanın kötüyə ilişdiyi vaxtlar da olub.

1981-ci ildə *"Solidarnost"* təşkilatının Polşada təşkil etdiyi inqilabi hərəkətlənmələr zamanı sovet dövləti çox istəsə də, vaxtilə Rusiyanın Altay diyarında sürgün həyatı yaşamış, doğma atasını bu diyarda *"Pravda"* qəzetinə bükük dəfn etmiş, sonradan görkəmli hərbçi olmuş Voytsex Yaruzelski özü hərbi çevriliş edərək Polşada xunta rejimi qurub, amma sovet ordusunun Polşaya soxulmasına, daha dəqiqi, bu ölkədə olan sovet hərbi kontingentinin hakimiyyəti götürməsinə imkan verməyib.

Yuxarıda sözü gedən hərbi müdaxilələr içində biri var ki, o biriləri (Budapeşt və Praqa hadisələri) ilə müqayisədə ondan az bəhs edilib.

Stalinin ölümündən dərhal sonra sovet işğalında olan ADR-də düzən pozulub və sovet-rus əsgəri vəziyyətə sərt müdaxilə edib. İyun ayının 9-da başlayan anti-kommunist çıxışlar, sırf iqtisadi səbəblərdən, güzərana görə narazılıqdan doğan etiraz aksiyaları böyüyüb, genişlənib.

Əslində, zəhmətkeş kütlələrin etirazı ADR hökumətinə, əlindən bir iş gəlməyən, ölkədə kolxoz-sovxoz qurmaq istəyən, özəl mülkiyyətin milliləşdirilməsinə çalışan Valter Ulbrixtə (ADR-in faktiki lideri) qarşı olub. Ancaq istənilən protesti özünə qarşı yönəlmiş aksiya sayan SSRİ hökuməti almanlara daha bir *"qulaqburması"* vermək fikrinə düşüb.

Nəhayət, iyunun 17-də Berlində və başqa şəhərlərdə toqquşmalara səbəb olub. Sovet tankları Şərqi Berlinin küçə və meydanlarına çıxıblar. Alman fəhlələr valın o biri üzünü çevriblər və yadelli işğalçılara qarşı da cürətli transparantlar qaldırıblar: *"İvan, rədd ol evinə!", ", İşğalçılar, rədd olun burdan!"* və s.

Nümayişçilər sovet əsgərlərinə hücum etməsələr də, tezliklə ilk atəş səsləri eşidilib. Əsgərlər dinc nümayişçiləri güllələbaran etməyə başlayıblar. Sovet dövlətinin ən odioz fiqurlarından biri olan Lavrenti Beriya hiddətli şəkildə Berlinə zəng vurub, şəhərdəki sovet məmurlarının üstünə qışqırıb: *"Nəyə görə Semyonovun gülləyə heyfi gəlir?"* O, tezliklə və sərt şəkildə vəziyyəti sabitləşdirməyi tələb edib. Ancaq Şərqi Almaniyanın ali komissarı və bu ölkədəki səfiri Vladimir Semyonov və generallar bir az "insaflı" tərpəniblər, Beriyanın əmrinə itaət edərək minlərlə nümayişçini güllələməyiblər.

Bəzi mənbələrə görə, toqquşmalarda 25, bəzilərinə görə, 500-dən artıq etirazçı həlak olub. Ancaq Semyonov daha dəqiq məlumat yayıb: *"Hər iki tərəfdən 220-dən artıq adam həlak olub".*

*"Hər iki tərəfdən"*... Hər kəsə aydındır ki, təpədən-dırnağa qədər silahlanmış əsgərlə əliyalın nümayişçinin savaşında qurbanlar bərabər ola bilməzdi. Yəqin ki, bunlardan 220-s mülki insan, bir neçəsi isə təsadüfən özününkülərin çovumuş gülləsinə tuş gələn əsgər olub.

Sonra ADR-də fövqəladə vəziyyət elan edilib. Sovet generalları mülki hakimiyyətə əl qoyublar. Şərqi Berlin ikinci dəfə rus-sovet çəkməsinin təpik zərbəsini dadıb.

Artıq iyunun 25-də işğal hökuməti Berlin, Maqdeburq, Qall, Potsdam, Gerlits, Dessau, Merzeburq, Bitterfeld, Kotbus, Drezden, Leypsiq, Gera və Yena şəhərlərindən başqa, bütün ADR ərazisində fövqəladə vəziyyət rejiminin ləğv olunduğunu bildirib.

Etiraz nümayişlərinin yatırılmasından sonra sovet ordusu və təhlükəsizlik orqanları cəza maşınını hərəkətə gətiriblər. Həbslər, təqiblər həyata keçirilib. Nümayişlərdə fəallıq göstərən 5 nəfər sovet işğal hökuməti tərəfindən edama məhkum edilib. Daha iki nəfərə ADR hökuməti ölüm cəzası verib. 4 adam işgəncələr nəticəsində təcridxanada ölüb, 4 nəfər istintaq dönəmində intihar edib. 1 nəfər polis məntəqəsində ürəktutmadan ölüb. 5 təhlükəsilik xidməti əməkdaşı həbsxananı müdafiə edərkən həlak olub, 1 alman polismen sovet əsgəri tərəfindən yanlışlıqla güllələnib.

Ümumilikdə bu etiraz aksiyaları və iğtişaşlara görə əvvəlcə 1240 adam *"təxribatların iştirakçısı"* kimi mühakimə olunub. Sonra bu rəqəm 1526-ya çatıb. Onlardan 3-nə ömürlük həbs cəzası verilib. 13 nəfərə 10-15 il həbs cəzası kəsilib. 99 nəfərin cəzası 5-10 il təcrid edilmə olub. Yerdə qalanlar canlarını 1-5 illik həbs cəzası ilə qurtarıblar.

İyunun 17-də hiddətlənmiş əliyalın almanların sovet hərbçilərinə gücü çatmasa da, öz həmvətənlərindən birini linç ediblər. Bu, Vilhelm Hagedorn adlı məmur olub. O, Ratenovoda dövlət ticarət idarəsində mühafizə rəisi işləyib və bundan əvvəl, 1951-ci ildə içkili halda *"300 faşisti və imperializm nökərlərini"* şəxsən ifşa etməsiylə öyünüb. İyunun 17-də saat 12-də nümayişçilər Hagedornu mağazanın yaxınlığında görüblər və qovaraq tutublar. Qızğın kütlə onu döyüb-əzişdirib, yerə yıxıb təpikləyib. *"Bu iti asmaq lazımdır"* deyə təklif verənlər olub. Hagedorn arada süd zavodunda gizlənib, arxasınca gələn təcili yardım maşınına minəndə kütlə onu yenidən yaxalayıb. Etirazçılar təcili yardım maşınını aşırıblar, Hagedornun özünü isə kanala atıblar. Bir neçə gənc onun başına avarla zərbələr endiriblər. Nəhayət, polislər ifşaçı Vilhelmi sudan çıxararaq xəstəxanaya aparıblar, ancaq o, aldığı ağır zərbələrə görə elə həmin gün orada ölüb. Bu hadisəyə görə iki 18 yaşlı gəncə edam cəzası verilib (sonradan dəyişdirilib), bir xeyli iştirakçı isə uzunmüddətli həbs cəzasına məhkum ediliblər.

ADR-də bu ekstremal hadisələr baş verərkən ABŞ prezidenti postunda II dünya müharibəsinin müzəffər generalı Duayt Eyzenhauer olub. Eyzenhauerin administrasiyası ADR-dəki böhranı diqqətlə izləyib, ancaq bu fikrə meyllənib ki, ADR və SSRİ rəhbərliyi böhranın öhdəsindən yaxşı gəlir, vəziyyəti sabitləşdirir və ondan *"möhkəmlənmiş halda"* çıxacaqlar.

Bir sözlə, 69 il əvvəl də ABŞ rəhbərliyi baş verənlərə görə sadəcə narahat olub, heç bir əməli tədbir görməyib.

Sovet-rus və alman-kommunist təbliğatı 1953-cü ilin iyununda ADR-də baş verənləri *"xarici qüvvələrin təxribatı"* kimi qələmə verməyə çalışıblar, hücum nəticəsində çoxlu əsgərin öldürüldüyünü açıqlayıblar, dinc nümayişçiləri *"quldur"* adlandırıblar.

Bu gün Qazaxıstanda baş verənlər köhnə ssenari üzrə gedir. Tarixi məqalələri oxuyanlar üçün burada yeni bir şey yoxdur.

Yekun olaraq ona demək olar ki, Moskva-Kreml 1953-cü ildə ADR-ə necə yanaşırdısa, onu özü üçün nə hesab edirdisə, bu gün Qazaxıstana da o cür yanaşır və həmin şey hesab edir.

Sadəcə, artıq ölkələri tanklarla, avtomatik tüfənglərlə işğal etmək effektli deyil. Bu cür işğallar çox çəkmir və sonda uğursuzluğa düçar olur.

# Hakimiyyətə gəlişi də, gedişi də iğtişaş törədən lider

## Nazarbayevin zühuru və süqutu

**Qazaxıstanda gərginlik hökm sürür və bu vəziyyət 36 il öncəni, 1986-cı ilin hadisələrini xatırladır. Etirazçıların mübarizə forması o dövrlə eyni olsa da, məzmun fərqlidir. Hələ ki məlum olan sosial narazılıqdır. Elə 1986-cı ilin dekabrın 16-da da etirazlara ilk səbəb rəsmi olaraq Qazaxıstan Kommunist Partiyası Mərkəzi Komitəsinə Gennadi Kolbinin birinci katib təyin olunması idi.**



Qeyd edək ki, 1986-cı il Qazaxıstan hadisələri SSRİ-də siyasi və milli zəmində kütləvi iğtişaşların baş verdiyi, antisovet şüarların səsləndiyi ilk qaynar nöqtə olub.

Hadisələrdən öncə Qazaxıstana Dinmühəmməd Kunayev rəhbərlik edib. Məhz Qazaxıstan hadisələrinin baş verməsinin bir səbəbi də Kunayevin vəzifədən uzaqlaşdırılması olub. Kunayev SSRİ-nin siyasi elitasında ən nüfuzlu şəxslərdən biri sayılıb. O, 22 il boyunca rəhbərlik etdiyi respublikada da böyük nüfuz qazanıb. Bu 22 il ərzində Qazaxıstanda sənaye istehsalı 8.9 dəfə, kənd təsərrüfatı 6.2 dəfə artıb. Əhalinin artımında da göstəricilər müsbət olub, bu illər ərzində respublikada milliyyətcə qazax olanların sayı 2.5 dəfə, ümumilikdə isə 2 dəfə artıb, respublikada əsas vəzifələri tutanların 70 faizi qazaxlar olub.

Leonid Brejnevlə Kunayevin arasında olduqca yaxın münasibətlər hökm sürüb. Brejnev baş katib kimi Qazaxstana səfər edəndə birinci katibin mənzilində qalıb. Hətta baş katib Kunayevin mənzilinin kiçik olmasını ona "irad" tutub. Kunayev bütün məsələləri birbaşa Brejnevlə həll edib. Onun Kremlə gəlişini Suslov belə xarakterizə edib:

***"Kunayev Kremlə gələndə, sanki Brejnevin şəxsi mülkünə qonaq gəlir. Gəlir, ev sahibi ilə görüşür, sözünü deyir, problemini həll edir və geri qayıdır..."***

Kunayev 1976-cı ildə Mərkəzi Komitəyə kənd təsərrüfatı məsələləri üzrə katib təyin edilən Qorbaçovu isə, ümumiyyətlə ciddi fiqur kimi qəbul etməyib, müşavirə və iclaslarda ona *"cavan oğlan"* deyə müraciət edib.

Brejnevin vəfatından sonra Kunayev birinci katib vəzifəsində dörd il duruş gətirə bilib. 1986-cı dekabrın 11-də Kunayevin iştirak etmədiyi Siyasi Büronun iclasında onun vəzifədən uzaqlaşdırılması haqqında qərar qəbul olunub. Dekabrın 16-da isə Qazaxstan KP MK-nın 18 dəqiqə davam edən plenumunda Kunayev birinci katib vəzifəsindən azad edilib.

Kunayev özündən sonra Qazaxstanın birinci katib kürsüsündə Nursultan Nazarbayevi görmək istəyib. Həmin dövrdə Nazarbayev Qazaxstan Nazirlər Sovetinin sədri vəzifəsində işləyib. Amma Qorbaçov hakimiyyətində Kunayev kadr məsələsinə qarışmaq imkanında olmayıb.

Dekabrın 16-da Qazaxıstana yeni birinci katib təyin olunması məsələsi də həll olunub. Saatlar ərzində Ulyanovsk vilayət partiya komitəsinin birinci katibi Gennadi Kolbin Kremlə gətirilib. İlk əmək fəaliyyətinə çəkməçi kimi başlayan Kolbin 1959-cu ildən partiya orqanlarında işləyib. Nijni Tagildə, Sverdlovskda katib, ikinci katib işləyən Kolbin 1975-1984-cü illərdə Gürcüstanda, Şevardnadzenin birinci katib olduğu illərdə respublika KP MK-nın ikinci katibi vəzifəsində çalışıb. Məhz onun Kremllə əlaqələr yaratmasında Şevardnadzanin böyük rolu olub. Əslində Kolbinin Gürcüstandan sonra hansısa bir müttəfiq respublikaya birinci katib təyin olunması nəzərdə tutulub. Amma Kreml bu təyinatı gerçəkləşdirə bilmədiyindən onu Ulyanovsk vilayətinə birinci katib göndəriblər.

Sözsüz ki, Kolbin Qazaxıstanda birinci katib kimi fəaliyyətə başladığı birinci günün gözlənilməz hadisələrlə başlanacağını ağlına gətirməyib.

Heç vaxt Qazaxıstanda işləməyən, qeyri-qazax bir şəxsin Qazaxıstana rəhbərliyə gətirilməsi iğtişaşlara, nümayişlərə, mitinqlərə, qarşıdurmaya səbəb olub. Tələbələrin başladığı etiraz aksiyalarına səhəri gün on minlərlə insan qoşulub. Qarşıdumaya ordu müdaxilə edib və itkisiz ötüşməyib. Qazaxıstan rəsmiləri, o cümlədən Nursultan Nazarbayev də etirazçıları sabitliyə çağırıb. Amma bütün bunlar heç bir nəticə verməyib.

SSRİ DTK-nın birinci müavini, hadisələr zamanı Alma-Atada olan ordu generalı Filip Bobkov öz memurlarında Qazaxıstan hadisələrinə toxunaraq qeyd edib ki, Nazarbayev etirazçı kütləleri sakitliyə, qanunlara riayət etməyə çağırsa da, o, etiraz aksiyalarının keçirilməsinin əsas təşkilatçılarından biri olub.

Qazaxıstan hadisələri ordunun müdaxiləsi ilə yatırılıb. Hadisələrlə bağlı cinayət işi açılıb, 9 min nəfərə yaxın etirazçı saxlanılıb, istintaqa ümumilikdə 6 min nəfərdən artıq adam cəlb edilib. Bəzi versiyalara görə, hadisələr zamanı ölənlərin sayı yüzlərlə olub. Amma rəsmi olaraq qarşıdurmada üç nəfərin öldüyü göstərilib. Bu rəqəmi Filip Bobkov da təsdiqləyib.

Qazaxıstan hadisələri Kolbini geri qaytara, Nazarbayevi isə birinci kürsüyə əyləşdirə bilməyib. Kolbin 1989-cu ilin iyun ayına qədər Qazaxstanın birinci katibi vəzifəsində fəaliyyətini davam etdirib. Yalnız həmin tarixdən sonra Nazarbayev illər boyu gözlədiyi kürsüyə sahib olub.

Nazarbayev uzun illər hakimiyyət sükanını böyük siyasi peşəkarlığla saxlaya bilib. Yəqin ki, çoxları belə düşünür. Amma yox, bu qənaətdə bir yanlışlıq var, çünki əsl peşəkarların heykəllərini aşırmırlar...

Təqdim edən: Şahin Nağıyev

# Paralel

Son səhifə

www.paralel.az
e.mail adresi:
paralel_qazeta@mail.ru

№ 003-004 (3571-3572) 13 yanvar 2022-ci il * İctimai-siyasi qəzet * Qiyməti 20 qəpik



## Kivi visseral piydən azad olmağa kömək edir

**Aparılmış tədqiqat göstərib ki, C vitamini ilə zəngin olan kivi visseral piyin ərimə sürətini artırır.**

Visseral piy qarın boşluğunda yerləşir və orqanizmdə hormonların işini tənzimləyir. Onun həddindən artıq olması potensial təhlükələrlə nəticələnə bilər: xüsusilə, ürək xəstəlikləri riski artır, çünki visseral piyin tərkibinə spesifik kimyəvi maddələr daxildir. Alimlərin qənaətinə görə, bəzi məhsulların qəbulu bu cür piylərin həddindən artıq miqdarından azad olmağa orqanizmə kömək edir – bununla əlaqədar olaraq onlar kivini qəbul etməyi tövsiyə edirlər.

*"Nutrients"* jurnalında dərc olunan tədqiqat nəticələrinə görə, kivi şəkərin qanda səviyyəsinə nəzarəti yaxşılaşdırır, bu isə piyin və çəkinin itirilməsi ilə bağlıdır. Tədqiqatda iştirak edənlər hər gün 12 həftə ərzində 2 kivi qəbul ediblər. Bu müddət bitdikdə insanlarda plazmada C vitamininin səviyyəsinin əhəmiyyətli dərəcədə artımı, həmçinin diastolik və sistolik qan təzyiqi göstəricilərinin azalması, bel və bel-omba hissəsi nisbətində azalma qeydə alınmışdı.

*"Kivinin tərkibinə həzmi yaxşılaşdıran aktinidin fermenti daxildir. Yaxşı həzm və davamlı çəki azalması bir-birini yaxşı tamamlayır"*, - deyə tədqiqatçılar qeyd edirlər.

Alimlərin fikrincə, azı 69 qram çəkidə bir dənə kivinin tərkibində təxminən 64 milliqram C vitamini var. Məhz o fiziki iş zamanı bədəndə piyin ərimәsini sürətləndirir. Bundan başqa kivi orqanizmdən azad radikalları xaric etməyə kömək edən xolin, lyutein və zeaksantin də daxil olmaqla, digər antioksidantların yaxşı mənbəyidir. Tədqiqat müəlliflərinin fikrincə, kivinin qəbulu və müntəzəm fiziki məşğələlər visseral piyin miqdarını əhəmiyyətli dərəcədə azaltmağa qadirdir, C vitamini tərkibli məhsulların kifayət qədər qəbulu isə insanları yağ kütləsinin toplanmasına daha dayanıqlı edə bilər.

# Boyat yeməklərin orqanizmə mənfi təsiri

**Bayram süfrəsini hər kəs zəngin və təmtəraqlı etməyə çalışır, çeşid-çeşid yeməklər, növbənöv salatlar, şirniyyatlar hazırlanır. Bəzən də istehlak edilməyən yeməklər israf olunmaması üçün sonrakı günə saxlanılır. Mütəxəssislərə görə, dəfələrlə qızdırılıb boyat şəkildə istehlak edilən yeməklər orqanizmdə bir sıra fəsadlara səbəb ola bilər. Hətta düzgün şəraitdə saxlanılanda da, termiki emal olunmuş qidaların tərkibindəki bitki və ya heyvan mənşəli qida maddələrinin parçalanma prosesi başlayır. Nəticədə əvvəlcədən toksiki olmayan maddələr zəhərli maddələrə çevrilir.**

Bu barədə Qida Təhlükəsizliyi İnstitutunun mütəxəssisi Ülviyyə Cəlilovanın hazırladığı elmi məqalədə bəhs olunur.

Qidaların dadında dəyişiklik o halda aşkar hiss olunur ki, onların tərkibinin çox hissəsi korlanmış olur. Ümumiyyətlə, yumurta, balıq, ət, toyuq, göbələk və s. kimi riskli məhsullardan hazırlanmış yeməklər iki saatdan artıq süfrədə qalmamalıdır. Əgər həmin qidalar soyuducuya qoyulmadan otaq temperaturunda və açıq şəkildə qalırsa, növbəti dəfə qızdırılıb istehlak edilməsi tövsiyə olunmur.




### Yeməyi dəfələrlə qızdırmaq olarmı?

Əvvəlki gündən qalmış yeməklər zamanla yarışan bizlər üçün çox vaxt əlverişli ola bilər. Ancaq bəzi yeməklər yenidən qızdırılanda insan sağlamlığı üçün təhlükəli olur. Xüsusilə də saxlanma şəraiti düzgün olmayanda yemək qalıqları bir çox mikroorqanizmlərin inkişafı üçün əlverişli mühitə çevrilir. Soyuducuda yerləşdirilməzdən əvvəl bişirilmiş yeməklər otaq temperaturuna qədər soyudulmalıdır. İsti halda soyuducuya qoyulmuş qidalar rütubətin artmasına səbəb olduğundan onların tərkibində zərərli bakteriyaların çoxalması sürətlənir. Təzə bişmiş yeməklərdən fərqli olaraq, soyuducudan çıxmış yeməyi qızdırdığımız zaman dadındakı dəyişikliyin səbəbi məhz elə həmin mikroorqanizmlərdir. Bundan başqa, qidalar soyuducuda çarpaz çirklənməyə də məruz qala bilir. Bəzi qidalar nə qədər çox saxlanılarsa, tərkibində mövcud olan allergen xüsusiyyətli histaminin miqdarı bir o qədər artmış olur. Tərkibində histamin çox olan qidaların istehlakı başağrısı, nəfəsalma və həzm sistemi problemləri, eləcə də qaşıntı kimi simptomların əmələ gəlməsinə yol açır. Ona görə də boyatımaması üçün yeməkləri mütləq qədərində hazırlamaq lazımdır.

### Hansı qidalar daha tez xarab olur?

Nə vaxt bişdiyini bilmədiyimiz yeməkləri yeməməliyik. Uzun müddət saxlandığı təqdirdə keyfiyyəti dəyişən qidalar arasında yumurta istifadə edilərək hazırlanan məhsullar (təbii ki, mayonez də) da var. El arasında belə bir fikir var ki, "boyat plov daha dadlıdır". Lakin boyat plovun yenidən isidilərək istehlak edilməsi də sağlamlıq üçün təhlükə yarada bilər. Düyü bişirildikdə də onun tərkibində olan bakteriyalarının sağqalma ehtimalı yüksək olur. Plov düzgün bişirilmədikdə və ya saxlanmadıqda onun tərkibində olan bakteriyanın inkişafına əlverişli şərait yaranmış olur. İnkişaf edən bakteriyalar tərəfindən sintez olunan toksinlər nəticədə qida mənşəli xəstəliklərə, hətta qida zəhərlənməsinə səbəb olur. Əksər hallarda qoxlamaq və ya dadmaqla yeməklərin xarab olub-olmadığını müəyyənləşdirməyə çalışırıq. Lakin qida zəhərlənməsinə səbəb olan bəzi bakteriyalar qidanın qoxusunu və dadını korlamadan da çoxala bilir. Dəniz məhsulları, süd və süd məhsulları, tortlar və şirniyyatlar da qida zəhərlənməsinə səbəb olan mikroorqanizmlər və onların toksinlərinin daşıyıcısı sayılır. Ona görə də bu tip qidaların istehlakı zamanı daha diqqətli olmaq lazımdır.

<u>Beləliklə, isidilərək yenidən istehlakı tövsiyə olunmayan qidalar</u>:

Toyuq əti ya təzə bişmiş, ya da soyuq halda istehlak edilməlidir. Toyuqdan hazırlanmış yeməklərin yenidən isidilməsi zülal tərkibinin dəyişməsinə və həzm prosesinin pozulmasına gətirib çıxarır.

Yumurta qaynadılandan və ya müxtəlif üsullarla bişirilәndən sonra yenidən isidilərsə, qida zəhərlənməsinə səbəb ola bilər. Xüsusilə də tərkibində yumurta olan bir sıra sousların və ya yumurta ilə ədviyyatlı yeməklərin yenidən qızdırılması tövsiyə olunmur.

Göbələklər bişiriləndən sonra yenidən qızdırılanda qida dəyərini itirir və həzm sistemində problemlər yaradır. Göbələk bişiriləndən sonra soyuq şəkildə də istehlak edilə bilər.

Kartof da təzə bişmiş halda istehlak edilməlidir. Bişmiş kartof otaq temperaturunda uzun müddət saxlandıqda botulizm xəstəliyinə səbəb ola bilər.

İspanaq bişdikdən sonra dərhal istehlak edilməlidir, çünki yenidən isidiləndə ispanağın becərilməsində istifadə olunmuş nitrat qalıqları daha zəhərli maddə olan nitritlərə çevrilir. Xüsusilə də uşaqlara ispanaqdan hazırlanmış yeməklər verilərkən daha diqqətli olmaq lazımdır.

Çuğundur və kərəvizin də bişirildikdən dərhal sonra istehlak edilməsi tövsiyə olunur.

Boyat qidalar kimi, elə boyat çayın da orqanizmə ziyanı var, çünki köhnə dəmlənmiş çay bütün faydalı xüsusiyyətlərini itirmiş olur. Dəmlənəndən sonra uzun müddət saxlanılmış çayın tərkibində bakteriya və göbələklər inkişaf edir. Bu da mədə turşuluğunun dəyişməsinə və ürək problemlərinə səbəb olur. Həmçinin boyat çayın istehlak edilməsi orqanizmdə su mübadiləsinə mənfi təsir edir və bu da bağırsaqların funksiyasının pozulmasına və qəbizliyə səbəb olur. Boyat çayın zərərlərindən biri də orqanizmdə dəmirin mənimsənilməsinin azalmasına, bu isə nəticədə orqanizmdə qanazlığı və qanazlığına bağlı digər xəstəliklərin yaranmasına aparıb çıxarır.

## Qırmızı soğan bu xəstəlikdən də qoruyurmuş



Alimlər qırmızı soğanı ən faydalı soğan növü hesab edirlər. Quelf Universiteti (Kanada) alimləri qırmızı soğanın xərçəng toxumalarına olan təsirini araşdırıblar.

Onlar belə nəticəyə gəliblər ki, qırmızı soğanın tərkibində olan kversetin və antosian maddələri bağırsaq xərçəngi toxumasının artmasını ləngidir. Araşdırmanın nəticələri Food Research International jurnalında dərc olunub.

Kversetin DNT-ni zədələyən və xərçəngin inkişafına təkan verən sərbəst radikalları neytrallaşdırır və həmçinin orqanizmə iltihabəleyhinə təsir edir. Antosian maddələri də qımızı soğanın xərçəngəleyhinə xüsusiyyətlərini daha da artırır.

Mütəxəssislər xərçəngin profilaktikası məqsədi ilə qidalanmaya daha tez-tez qırmızı soğanı daxil etməyi tövsiyə edirlər.

*Təsisçi və baş redaktor:*
Tapdıq Abbas

*Birinci müavin:*
Akif Nəsirli

*Baş redaktorun müavini:*
Şahnaz Salehqızı

*Sosial-siyasət şöbəsinin müdiri:*
Mahir Abbaszadə

*İnformasiya şöbəsinin müdiri:*
Röyal Əsədli

*Qarabağ bürosunun redaktoru:*
Elman İsrafiloğlu

*www.paralel.az saytının operatoru*
Murtuza Sudeyifoğlu

*Bölgə müxbirləri:*
Vaqif Cəmiloğlu
Rəşid Nəcəfli
Əlizadə Nəhmədağaoğlu
İlkin Əsədzadə

*Qəzet 16 fevral 2002-ci ildən çıxır.*
Ünvan: AZ 1073, Azərbaycan, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, 6-cı mərtəbə "Azərbaycan" nəşriyyatı
Tel: **510 15 07**, Fax: **510 15 06**
E_mail: paralel_qazeta@mail.ru
*Qəzet "Son Dakika" MMC-nin mətbəəsində çap olunub.*
Əlyazmalara rəy verilmir və geri qaytarılmır.
Qeydiyyat №257
Sifariş: **2185** Tiraj: **1550**